# Xalq qəzeti

Xalqın qəzeti!

№ 168 (30572) 9 avqust 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti




## Azərbaycanın beynəlxalq COP29 səfərbərliyi

Səhifə ⇨ 8

## Qardaş dövlətlərin liderləri Astanada görüşürlər



Səhifə ⇨ 3

## Bakı sülh yolunu qısaldır



**Sülhə aparan yolun qarşısını kəsən əsas maneə Ermənistan konstitusiyasında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarını ehtiva edən müddəalardır ki, bunlar tezliklə aradan qaldırılmalıdır. Rəsmi İrəvan regional kommunikasiyalara dair maddənin sülh sazişinin mətnindən qarşılıqlı razılaşma əsasında çıxarıldığı ilə bağlı Bakının bəyanatını təsdiqləyib.**

Erməni mediası Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Ani Badalyanın bununla bağlı şərhini yayıb: “Bu razılaşma sayəsində kommunikasiyaların blokdan çıxarılması, suverenlik, yurisdiksiya, qarşılıqlı marağa və bərabərliyə əsaslanan, “Dünyanın kəsişməsi” proqramında əksini tapdığı kimi, Ermənistanın sülh və iqtisadi inkişafa dair baxışının mühüm hissəsi olmaqda davam edir”.

Qeyd edək ki, bundan əvvəl Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi, səfir Elçin Əmirbəyov “Azadlıq” radiosuna müsahibəsində bildirmişdi ki, tərəflər Azərbaycanın qərb hissəsini Naxçıvanla birləşdirən marşrut da daxil olmaqla nəqliyyat kommunikasiyalarına dair maddənin sülh müqaviləsi layihəsindən çıxarılması barədə razılığa gəlib. Onun sözlərinə görə, bu məsələnin sonrakı mərhələdə həlli barədə razılıq əldə olunub: “Söhbət Ermənistan konstitusiyasının Azərbaycanın təzyiqi altında dəyişdirilməsindən deyil, seçicilərin bir suala cavab verməsindən gedir: Siz sülh istəyirsiniz, yoxsa Azərbaycanla yeni qarşıdurma üçün fürsət? Əgər Ermənistan hakimiyyəti sualı bu cür qoyarsa, düşünürəm ki, referendumda iştirak edəcək Ermənistan vətəndaşlarının əksəriyyəti sülhü dəstəkləyəcək”. Onun sözlərinə görə, hazırda danışıqları asanlaşdıran amillərdən biri də odur ki, hər iki tərəf qalan məsələlərdən ən mübahisəli olanını – Azərbaycanın əsas hissəsini onun eksklavı olan Naxçıvanla birləşdirəcək nəqliyyat marşrutlarının təşkili, yəni Zəngəzur dəhlizi məsələsini sülh sazişindən sonrakı mərhələdə həll etməyə razılaşıb.

Bundan başqa, Bakı İrəvana Minsk qrupunun fəaliyyətinə xitam verilməsi barədə ATƏT-ə birgə müraciət göndərmək təklifini də irəli sürüb. Amma Ermənistan hakimiyyəti Azərbaycanın bu təklifinə hələ də cavab verməyib. Doğrudur, 44 günlük müharibə və 23 saatlıq antiterror tədbirindən sonra Bakının tarixin arxivinə göndərdiyi beynəlxalq “həmsədrlər institutunun” tərəfləri sülhə aparan yola təsir imkanları sıfıra bərabərdir.

*(ardı 4-cü səhifədə)*

## ABŞ Ermənistana yaxşılıq edir, yoxsa pislik?

### İrəvana yardım və illüziya bataqlığında çökmə

**ABŞ Cənubi Qafqaz regionunda sülh istəyir, yoxsa müharibə? Belə bir sualın ortaya çıxma səbəbi çox sadədir. Məlum olduğu kimi, avqustun 2-də və 3-də Birləşmiş Ştatların Rumıniya və Yaxın Şərqdəki hərbi bazalarından Ermənistanın “Zvartnots” hava limanına iki hərbi təyyarə enib. “Caliber. Az”ın etibarlı mənbələrdən əldə etdiyi məlumata görə, təyyarələrdə nəinki hərbi yüklər, eyni zamanda, şəxsi heyət də olub. Düşündürücüdür, ABŞ bölgəyə qoşunmu yeridir? Ümumən ölkənin məqsədi nədir?**



Bildirilir ki, haqqında söz açdığımız olay bu il aprelin 5-də Brüsseldə keçirilmiş ABŞ-Avropa İttifaqı-Ermənistan yüksək səviyyəli görüşünün nəticəsi olaraq imzalanmış sənədin hərbi əməkdaşlığı nəzərdə tutan məxfi hissəsinə uyğundur. Yəni, Ermənistan silahlı qüvvələrinə Birləşmiş Ştatlar istehsalı olan yeni nəsil silahların – snayper tüfənglərinin, gecəgörmə cihazlarının, xüsusi rabitə vasitələrinin, zirehli texnikanın, habelə erməni xüsusi təyinatlıları üçün ABŞ ordusunda istifadə edilən mini-hücum pilotsuz təyyarələrinin, kiçik ölçülü minaların və digər döyüş sursatlarının verilməsi məhz həmin sənəddən irəli gəlir.

*(ardı 3-cü səhifədə)*

## Rusiya–Ukrayna savaşı: Kurskda nə baş verir?



Səhifə ⇨ 11

## Ermənistanın yeni dəhliz xülyası...



Səhifə ⇨ 3

## Media nümayəndələri üçün müşavirə



Səhifə ⇨ 5

## Ölkəmiz IV Sənaye İnqilabının çağırışlarını həssaslıqla cavablandırır



Səhifə ⇨ 7

# Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri

## Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak etmək üçün avqustun 8-də Qazaxıstana səfərə gəlib.**

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Qazaxıstanın Baş naziri Oljas Bektenov və digər rəsmi şəxslər qarşıladılar.

# Azərbaycan lideri Astanada “Dostluq axşamı” konsertində





**Avqustun 8-də Qazaxıstanın paytaxtı Astana şəhərində “Вечер дружбы” adlı qala konsert keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# Astanada dövlət başçılarının qeyri-rəsmi şam yeməyi

**Avqustun 8-də Qazaxıstanın paytaxtı Astanada dövlət başçılarının qeyri-rəsmi şam yeməyi olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

*AZƏRTAC*

# Birinci vitse-prezident Mehriban Əliyeva Qaşım Maqomedovun Olimpiya Oyunlarının gümüş medal mükafatçısı olması ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Qaşım Maqomedovun Olimpiya Oyunlarının gümüş medal mükafatçısı olması ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir:** “Paris Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı, taekvondoçu Qaşım Maqomedovu səmimi-qəlbdən təbrik edirəm! Gərgin əməyinə, yenilməz iradəsinə və qələbə əzminə görə idmançımıza təşəkkür edir, ona möhkəm cansağlığı və yeni-yeni nailiyyətlər arzulayıram!”.

# Azərbaycanın yunan-Roma güləşçisi Həsrət Cəfərov bürünc medal qazandı!




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Həsrət Cəfərovun Olimpiya Oyunlarının bürünc medal mükafatçısı olması ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir:** “Ura! Növbəti qələbəmiz! Azərbaycanın yunan-Roma güləşçisi Həsrət Cəfərov bürünc medal qazandı! İdmançımızı səmimi-qəlbdən təbrik edirəm! Azərbaycan azarkeşlərinə bəxş etdikləri sevincə görə bütün qaliblərə təşəkkürümü bildirirəm!”

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası



**Avqustun 8-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

Əvvəlcə komissiyanın avqustun 5-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Müsavat Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verilib.

Daha sonra bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi məsələsinə baxılıb. Mərkəzi Seçki Komissiyasının qərarı ilə 7 saylı Səbail və 37 saylı Qaradağ seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunub.

Komissiyanın iclasında beynəlxalq müşahidə missiyası təmsilçilərinin və maraqlı subyektlərin bilavasitə iştirakı ilə Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə də baxılıb. Aparılan geniş müzakirələrdən sonra MSK namizədliyin imtinası ilə bağlı müvafiq dairə seçki komissiyasının qərarını ləğv edərək, daha bir nəfərin Milli Məclisə seçkilərdə namizədliyini qeydə alıb.

Media nümayəndələri tərəfindən operativ şəkildə işıqlandırılan iclasda cari məsələlərə də baxılıb.

*XQ*

# YAP-ın seçki şüarı: “Yeni dövrə Yeni Azərbaycanla!”





**Avqustun 8-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında Milli Məclisə sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərdə YAP tərəfindən deputatlığa irəli sürülmüş namizədlərin və partiyanın yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.**

Müşavirədə YAP-ın ölkə üzrə 125 seçki dairəsindən irəli sürdüyü bütün namizədlərin qeydə alındığı vurğulanaraq, onlara bundan sonrakı mərhələdə uğurlar arzulanıb. Bildirilib ki, 125 nəfər xüsusi icazəli müşahidəçi səsvermə gününədək dairə seçki komissiyalarının, 1 nəfər isə Mərkəzi Seçki Komissiyasının iclaslarını müşahidə edəcək, 817 nəfər Azərbaycan Respublikasının bütün seçki dairələrində, 12686 nəfər məntəqə seçki komissiyalarında səsvermə günü müşahidə aparacaq. Bununla yanaşı, 1 nəfər Mərkəzi Seçki Komissiyası üzrə məşvərətçi səs hüquqlu üzv, 6468 nəfər isə dairə və məntəqə seçki komissiyaları üzrə məşvərətçi səs hüquqlu üzvlər təyin olunub.

Avqustun 9-dan başlayacaq seçkiqabağı təşviqat mərhələsində qarşıda duran vəzifələrin icrasına dair fikir mübadiləsi aparılıb, həmçinin partiyanın seçkilərə “Yeni dövrə Yeni Azərbaycanla!” şüarı ilə qatıldığı vurğulanıb.

Diqqətə çatdırılıb ki, YAP 60-dan çox seçki dairəsindən namizədləri qeydə alınan siyasi partiya kimi İctimai Televiziya və Radio Yayımları Şirkəti və MSK tərəfindən müəyyən olunmuş mətbu orqanlar vasitəsilə ödənişsiz seçkiqabağı təşviqat aparmaq hüququna malik olsa da, demokratik prinsipləri rəhbər tutaraq, seçkiqabağı təşviqat mərhələsində digər partiya nümayəndələri və bitərəf namizədlərlə bərabər şərtlərdə rəqabətin aparılması məqsədilə bu imtiyazdan istifadə etməmək barədə qərar qəbul edib.

*XQ*

# ABŞ Ermənistana yaxşılıq edir, yoxsa pislik?

**(əvvəli 1-ci səhifədə)**

Əslində, qeyd edilənlər heç də təəccüblə qarşılanmamalıdır. Çünki bundan əvvəl ABŞ-nin hərbi mütəxəssislərinin Ermənistan xüsusi təyinatlıları üçün təlimlər keçdiyi məlumdur. O da məlumdur ki, həmin təlimlərdə əldə edilmiş biliklərin praktiki şəraitdə tətbiqi üçün Kəlbəcər istiqamətində Azərbaycan Ordusunun bölmələrinə qarşı təxribat törədilmişdi. Bundan başqa Ermənistana silah-sursat və şəxsi heyət daşınmasının digər tərəfləri də var. Nəzərə alaq ki, ABŞ-nin iki təyyarəsindən birində İran ərazisindən buraxılan raketlərin və təyyarələrin trayektoriyalarını izləyən xüsusi alətlər olub. Bildirildiyinə görə, həmin alət və qurğular Ermənistanın İranla sərhədində yerləşdiriləcək. O zonada ki, oradan Naxçıvana yol gedir. Naxçıvana yol məntiqinin izahı isə diqqəti rəsmi İrəvanın üzərinə düşən öhdəliklərdən boyun qaçırması üzərinə yönəldir. Deməli, Birləşmiş Ştatlar ona bu istiqamətdə kömək göstərir. Başqa cür düşünmək mümkünsüzdür. Bütün daşlar yerinə oturur.

Daşlar yerinə həm də ona görə oturur ki, ABŞ-nin Ermənistandakı hərbi missiyasının, belə demək mümkünsə, əlahiddəlik ampluası da mövcuddur. Bildirildiyinə görə, Vaşinqton Rusiya və İranın diqqətini İranla sərhəddə yerləşdiriləcək şəxsi heyətə cəlb etməmək üçün hərbçiləri xüsusi yanaşma ilə seçib. Necə? Məsələ ondadır ki, onların əksəriyyəti Amerika ordusunda xidmət edən erməni əsilli ABŞ vətəndaşlarıdır. Habelə, vaxtilə postsovet ölkələrindən Birləşmiş Ştatlara köçmüş slavyan və qafqazlılar da şəxsi heyətin tərkibində yer alırlar. Bu adamlar erməni silahlı qüvvələrinin hərbi geyimi ilə təchiz olunur və Ermənistanın Zəngəzurdakı hərbi bazasında yerləşdirilir.

Bəli, Azərbaycan–Ermənistan sülh gündəminin mövcud olduğu hazırkı şəraitdə sadaladıqlarımızın yaşanması istər-istəməz düşünməyə vadar edir. Ermənistanla bağlı hər şey məlumdur. Ölkə hər vəchlə çalışır ki, Azərbaycanla barış mühiti olmasın. Rəsmi İrəvanın illüziyaya qapıldığı da aşkardır. O da məlumdur ki, bu illüziyanın başlıca hərəkətverici qüvvəsi Fransadır. Zaman-zaman belə təəssürat yaranırdı ki, rəsmi Paris erməni avantürizminin körüklənməsində təkdir. Hətta mövcud istiqamətdə Avropa İttifaqından və qitənin digər təşkilatlarından eşidilən dəstək bəyanatları da bir elə əhəmiyyət daşımırdı. Ancaq indi yaşananlar göstərir ki, Ermənistanın ərazi bütövlüyünün qorunması və təhlükəsizliyinin təminatı siyasi klişesinin Birləşmiş Ştatlar kimi hamisi var. Vəziyyəti mürəkkəbləşdirən də elə bu məqamdır.

Bəs durum Cənubi Qafqaz regionunda maraqlı olan dövlətləri narahat etmirmi? Heç şübhəsiz, Azərbaycan vəziyyəti izləyir. Türkiyə ölkəmizlə həmfikirdir və bir qayda olaraq, birbaşa açıqlamalar səsləndirmir. Yəni, Bakı hansı fikirdədirsə, Ankara da eyni mövqeni bölüşür. Bu baxımdan ayrıca nəyinsə sübutuna ehtiyac yoxdur. İrana gəldikdə, qeyd etdiklərimizin fonunda Tehran cəbhəsində sakitliyin hökm sürməsi maraqlıdır. Görəsən, ABŞ hərbçilərinin Ermənistandakı mövcudluq amplitudası, loru dildə desək, həmin hərbçilərin qulağının dibində yerləşmələri İslam Respublikasını narahat etmirmi? Sual ritorikdir. Əlbəttə ki, narahat edir. Ancaq İranın Ermənistandakı səfiri "yuxulamağa" üstünlük verir.

Yerdə qalır Rusiya. Əslində, Moskva Qərbin Cənubi Qafqazda möhkəmlənmək və mövcud xüsusda Ermənistanı alətə çevirmək planlarına qarşı həmişə cəbhə açıb. Rusiya rəsmiləri hər zaman bununla bağlı bəyanatlar səsləndiriblər. Ancaq qeyd etdiyimiz məqam məsələyə daha həssas yanaşma zərurətini ortaya qoymaqdadır. Görünür, Rusiyanın sabiq müdafiə naziri Sergey Şoyqunun əvvəl İrana, sonra isə Azərbaycana səfəri heç də əbəs yerə deyilmiş.

Sonda yazımızın əvvəlindəki suala qayıdaq. ABŞ-nin məqsədi nədir? Axı ölkə rəsmiləri son zamanlar regionda təminatlı sülh mühitinin formalaşmasının vacibliyindən söz açırdılar. Yoxsa onlar da sülhü erməni avantürizmini diriltməkdə görürlər? Bəlkə bu avantürizmi qlobal alətə çevirməyi düşünürlər? Suallar çoxdur. Daha qəti cavab və reallıq isə budur ki, Azərbaycan heç bir halda mövqeyindən geri çəkilməyəcək. Ölkəmiz bölgədə erməni iddialarının yüksək fazaya sahiblənməsinə imkan verməyəcək. Bunu bütün dünya yaxşı dərk etməlidir. O cümlədən ABŞ da. Cənubi Qafqaz coğrafiyasında erməni varlığı siyasi müstəvidə deyil, məişət səviyyəsində olmalıdır. Bu varlığın siyasi xarakterinin hansı böyük fəlakətlər doğurduğunu gördük.



ABŞ-da, ümumən Qərbdə yaxşı anlamalıdırlar ki, Cənubi Qafqazda erməni varlığının dövlətçilik strukturu avantürist mahiyyətlidir və regionun təhlükəsizliyi baxımından ciddi təhdiddir. Bu strukturu saxlamaq istəkləri varsa, onu islah etməlidirlər. Silah-sursatla və digər hərbi təyinatlı təminat islah deyil, əslində, məhvə aparan yoldur. Birləşmiş Ştatların məqsədi Ermənistan dövlətinin varlığına son qoymaqdırsa, özü bilər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ermənistanın yeni dəhliz xülyası...

## Hindistan–İran–Ermənistan yolu dalana dirənir

**Yaxın vaxtlarda Ermənistan, İran və Hindistan nümayəndələrinin mühüm üçtərəfli görüşünün reallaşacağı gözlənilir. Görüşün məqsədi beynəlxalq logistikada yeni ticarət yolunun işə salınmasıdır. Bu barədə Ermənistan mətbuatı xəbər yayıb. Bildirilib ki, görüş İranda keçiriləcək və burada üç ölkənin logistika sahəsinin nümayəndələri strateji əhəmiyyətli Çabahar limanının infrastrukturu ilə tanış olacaqlar. Ermənistanın bu limanda əməliyyat fəaliyyəti ilə bağlı istəklərinə xüsusi diqqət yetiriləcək. Mənbələr vurğulayırlar ki, yeni marşrut Ermənistanın ticarət potensialını xeyli artıracaq, onun Hindistan və Cənub-Şərqi Asiya bazarlarına etibarlı çıxışını təmin edəcək.**




Ehtimal olunur ki, marşrut Hindistanın Mumbay limanından başlayacaq, sonra İranın Çabahar limanından və Ermənistan ərazisindən keçməklə Gürcüstan və ya Rusiyaya daha çox çıxış əldə edəcək. Eyni zamanda körfəz ölkələrindən və Hindistandan yüklərin optimal marşrutla Avropa İttifaqı (Aİ) və Avrasiya İqtisadi İttifaqına (AİI) daşınmasına imkan verəcək. İran və Hindistan üçün bu marşrut mürəkkəb dəniz yollarından yan keçməklə tədarükün diversifikasiya yolu kimi xüsusi əhəmiyyət daşıyacaq.

Mütəxəssislər qeyd edirlər ki, yeni ticarət dəhlizi logistika xərclərini 25 faiz və daşınma müddətini demək olar ki, iki dəfə – 40 gündən 18 günə qədər azalda bilər. Bu sxemdə Ermənistan Gürcüstanın Qara dəniz limanları vasitəsilə Asiyanı Avropa ilə birləşdirən əsas tranzit qovşağına çevrilir. Bu marşrut həm də Süveyş kanalından keçən marşruta perspektivli alternativ kimi qiymətləndirilir.

İlk baxışdan hər şey Ermənistan üçün çox gözəl görünür. Aysberqin görünən tərəfindən fərqli olaraq onun suyun altında qalan hissəsi çox təhlükəlidir. Birincisi, Hindistandan Rusiyaya və əksinə, göndərilən yüklər Yuxarı Lars gömrük-keçid məntəqəsindən keçməlidir. Çünki Ermənistanı ən böyük iqtisadi tərəfdaşı olan Rusiya ilə birləşdirən yeganə quru yolu Kazbek dağından keçən Yuxarı Lars gömrük-keçid məntəqəsidir. Bu məntəqənin yerləşdiyi ərazi olduqca çətin coğrafi relyefə malikdir. Əksər aylarda yollar şaxtalı və buzlu olur və yük maşınlarının keçməsində böyük çətinliklər yaradır. Digər tərəfdən, dayanacaq yerlərinin olmaması səbəbindən qoşqu növbəsi yaranır. Son məlumata görə, Yuxarı Lars gömrük-keçid məntəqəsində 4,4 min yük və minik avtomobilindən ibarət uzun növbə yaranıb.

Yuxarı Lars gömrük-keçid məntəqəsinin texniki imkanları isə onların qısa müddətdə keçidini təmin etmək imkanında deyil. Deməli, yük və minik avtomobilləri gömrük-keçid məntəqəsində günlərlə gözləməli olacaq. Bu əlavə xərc və vaxt itkisi yaradır. Onun buraxılış gücünü artırmaq üçün böyük məbləğdə vəsait tələb edilir. Yəni Yuxarı Lars gömrük-keçid məntəqəsi artan yük axınına hazır deyil. Yaxın gələcəkdə də müsbətə doğru dəyişiklik gözlənilmir.

Bu, beynəlxalq marşrutu perspektivsiz edən ikinci səbəb Ermənistan dəmir yolu infrastrukturunun iflic vəziyyətdə olmasıdır. Mehridən Qərbi Zəngəzuru keçməklə Gürcüstan sərhəddinə dəmir yolu xəttini çəkmək iqtisadi cəhətdən səmərəli deyil. Ermənistanı şimala bağlayan iki fərqli dəmir yolu var ki, onlardan biri Tbilisiyə, digəri isə Qazax vasitəsilə Bakı və Rusiyaya gedir. Ermənistanı Rusiyaya birləşdirən digər istiqamət isə Naxçıvan, Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın cənubundan keçir. Beləliklə, dəmir yolu xətti əvvəllər üç istiqamətdən hərəkət edərək Rusiyaya çıxış əldə edə bilirdi.

Cənubi Qafqazda baş verən münaqişələr səbəbindən hər 3 istiqamətdə Rusiyaya çıxış bağlıdır. Abxaziyadan keçən dəmir yolu 1991-93-cü illərdə gürcü – abxaz münaqişəsi nəticəsində fəaliyyətini dayandırıb.

Ermənistanla Azərbaycan arasında hələ 1988-ci ildən başlanan münaqişədən etibarən isə Dilican–Qazax istiqamətində dəmir yolu 1989-cu ildən tamamən fəaliyyətsizdir. Bu xətt demək olar ki, bütünlüklə sökülüb. Ermənistanın cənubundan keçən Mincivan–Mehri–Culfa dəmir yolu da öz fəaliyyətini dayandırıb. Bu xəttin Mehri isiqamətindən keçən hissəsi tamamilə sökülüb. İnfrastruktur istifadəyə yararsız vəziyyətdədir. Hazırda Zəngəzur dəhlizinin Ermənistan hissəsinin bərpasına çəkiləcək xərclər təxminən 226 milyon dollar təşkil edir. Onun öz ərazisindəki dəmir yolu infrastrukturunu tam bərpa edib işlək vəziyyətə salmaq üçün isə milyardlarla dollar lazımdır. Pul verən isə yoxdur.

Hazırda Ermənistan dəmir yolu yalnız Gürcüstana işləyir. Bu ölkənin mallarının 70 faizi Gürcüstanın Poti və Batumi limanlarından daşınır, dəfələrlə müxtəlif səbəblərdən mallar limanlarda ilişib qalıb, erməni sahibkarları bundan ziyan çəkib. Hətta malların bərələrlə Rusiyaya daşınması təşəbbüsləri olub. Sonunda uğursuzluqla nəticələnib.

İrəvan isə çıxış yolunu Rusiya ilə Ermənistanı birləşdirən və Abxaziyadan keçən dəmiryolu xəttinin açılmasında görür. Lakin bu arzu reallaşana oxşamır. Məsələ ondadır ki, Abxaziya ilə Rusiya və Ermənistan arasında dəmir yolunun açılması mövzusu dəfələrlə müzakirə olunub, amma gürcü tərəfinin haqlı etirazı səbəbilə razılığa gəlmək mümkün olmayıb. Gürcüstan hesab edir ki, Abxaziya ilə dəmir yolu əlaqəsinin bərpası onun "hakimiyyətinin" legitimliyini tanımağa bərabərdir, yalnız separatçıların maraqlarına xidmət edir. Bu ölkənin mətbuatı yazır ki, yolun açılması ekspert və siyasətçilər tərəfindən Gürcüstanın ərazi bütövlüyünə sarsıdıcı, ölümcül zərbə kimi qiymətləndirilir. Digər tərəfdən, bu, ölkənin iqtisadiyyatını da zəiflədir. Poti limanı ilə həyata keçirilən ticarət dövriyyəsini azaldır. Qaçqın və məcburi köçkünlərin geri qayıtmasının qarşısını alır.

Gürcüstan tərəfi həm də hesab edir ki, Abxaziya dəmir yolu sektoru, SSRİ illərində olduğu kimi, Gürcüstan dəmir yolunun Abxaziya sektoru adlanmalıdır.

Rusiya ilə Ermənistanı birləşdirən və Abxaziyadan keçən dəmiryolu xəttinin açılmasına mane olan digər səbəb isə maliyyə ilə bağlıdır. Dəmir yolunun Oçamşirdən Zuqdidiyə qədər olan hissəsi yalnız xəritədə mövcuddur. Abxaziya ərazisində yolun çox hissəsi isə sökülüb. Dəmir yolunun keçdiyi körpülər dağıdılıb. Texnika hara gəldi atılıb. Marşrutun bərpası üçün yüz milyonlarla dollar və ən azı bir neçə il lazım olacaq. Hazırkı şəraitdə bu amillər məsələ ilə bağlı danışıqları minimuma endirir.

Deməli, yeni beynəlxalq nəqliyyat dəhlizi bələyindəcə ölü doğulub. Yaxın onilliklərdə reallaşması qeyri-mümkündür. Bəs Ermənistanın çıxış yolu varmı?

Ermənistan üçün bütün istiqamətlərdə ən əlverişli çıxış Zəngəzur dəhlizidir. İrəvan üçün bu, iqtisadi inkişaf və regional təşəbbüslərə inteqrasiya imkanı yaradır, potensial olaraq ənənəvi marşrutlardan asılılığı azaldır. Onun inkişafı ölkənin iqtisadi artımına və geosiyasi əhəmiyyətinin artmasına töhfə verə bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Səni sevəcəyəm, sən sevməsən də...

## Zaxarova O`Brayna "deyir", Ermənistana "eşitdirir"

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova növbəti dəfə Ermənistanı, belə demək mümkünsə, ağ yuyub –qara sərib. Əlbəttə, xanım Zaxarova bilavasitə rəsmi İrəvana yüklənməyib. Sadəcə olaraq, onun dediklərindən belə çıxıb ki, Ermənistan rəhbərliyi sanki balaca uşaqdır, heç bir mövqeyi yoxdur. Zaxarova başqa hansı mətləblərə toxunub? Söhbətimiz həm də bu barədədir.**




Bəli, M.Zaxarova bildirib ki, ABŞ-nin Ermənistanın Rusiyadan üz döndərmək istəməsi ilə bağlı bəyanatları əsassızdır. Onun sözlərinə görə, Rusiya ilə Ermənistan arasında əsrlər boyu formalaşmış əlaqələr Qərbin bu əlaqələri yorulmadan məruz qoyduğu bütün güc sınaqlarından çıxaracaq. "O`Braynın Ermənistanın Rusiyadan üz döndərmək istəməsi ilə əlaqədar əsassız bəyanatlarına gəlincə, bu, amerikalılara xas olan geosiyasi mühəndisliyin növbəti nümunəsidir – dünya ictimaiyyətinin gözündə Vaşinqtona lazım olan "reallığı" uydurmaq istəyidir. Bu istəyin baş verənlərlə heç bir əlaqəsi yoxdur", – deyən M.Zaxarova əlavə edib ki, Rusiya tarix boyu qardaş erməni xalqı ilə dəfələrlə çiyin-çiyinə verib və bunu yenə etmək niyyətindədir.

Obrazlı desək, səni sevəcəyəm, sən sevməsən də. Əslində, Rusiya rəsmiləri Qərbpərəst Nikol Paşinyanın hakimiyyətə yiyələnməsindən sonra bu sayaq bəyanatları kifayət qədər çox səsləndiriblər. Onlar hərdən birbaşa rəsmi İrəvanı qınayıblar da. Daha həvəsli şəkildə isə erməni iqtidarını "yoldan çıxarmaq" istəyənləri tənəyə məruz qoyublar. Dediklərindən belə çıxıb ki, guya, erməni xalqı Rusiya ilə yaxınlıq tərəfdarıdır, ancaq Paşinyan və komandası bunu istəmir. Görəsən, Nikolu dəstəkləyən erməni xalqı deyilmi? Təzadlı durum yaranır...

Əlbəttə, Rusiya Ermənistanın öz orbitindən çıxması ilə heç cür barışa bilmir. Ancaq hazırda baş verənlər reallıqdır və onu dəyişmək üçün Moskvanın əlində heç bir vasitə yoxdur. M.Zaxarovanın C.O`Braynın mövqeyi ilə bağlı dediklərinə gəldikdə, bildirməliyik ki, ikinci dəfələrlə İrəvanı Vaşinqtonun anti-Rusiya ovqatında alətə çevirən bəyanatlar verib. Departament təmsilçisi bir müddət əvvəl Azərbaycan–Ermənistan sülh prosesi ilə bağlı danışarkən, barış mühitinin formalaşmasının Kremlin Cənubi Qafqazdan sıxışdırılması üçün mühüm vasitə olduğunu vurğulamışdı.

Ceyms O`Braynın sözlərindən bu qənaət hasil olmuşdu ki, Birləşmiş Ştatlar "Zəngəzur dəhlizi"nə önəm verir. Sadəcə, burada məsələnin qoyuluşu bir qədər fərqlidir. C.O`Brayn, ümumən Orta Asiyadan yüklərin daha səmərəli şəkildə daşınması məntiqi üzərində dayanmışdı və bunu Cənubi Qafqazın Rusiyadan asılılığının aradan qaldırılmasında mühüm məqam kimi dəyərləndirmişdi. Yəni ki, Vaşinqton üçün prinsipcə "Zəngəzur dəhlizi" ilə Ermənistan hakimiyyətinin irəli sürdüyü "Dünyanın kəsişməsi" arasında elə bir fərq yoxdur. Ancaq bir halda ki, rəsmi İrəvan Qərbin anti-Rusiya dirənişində mühüm rola malikdir, deməli, ölkənin təşəbbüsünün əsas götürülməsi ona bu dirənişin mükafatıdır. Mükafat isə özlüyündə erməni avantürizmi üçün ciddi impulsdur. Təhlükəli məqam da elə budur.

Azərbaycan belə bir durumla qətiyyən razılaşmır və razılaşa da bilməz. Ölkəmizin barışmazlığı Rusiya üçün sərfəlidir. Kreml Ukrayna müharibəsi ilə dünyda korlanmış reputasiyasına əlavə tünd rəng çalarları qatmaq istəmir. Ona görə də həm Zaxarova, həm də onun həmkarları hər vəchlə İrəvanı tutduğu yoldan döndərmək istəyirlər. Yəni, söz, fikir bildirməklə kifayətlənirlər. Rusiya XİN sözçüsünün C.O`Braynın dediklərinə sərt reaksiyası fonunda vurğuladıqları da buna hesablanıb.

Bəs Ermənistan hakimiyyəti mövqeyində dəyişiklik edə bilərmi? Sual ritorikdir, çünki rəsmi İrəvanın tutduğu kursdan daşınacağı real görünmür. Belə olan halda istər Ceyms O`Braynın söylədikləri, istərsə də Zaxarovanın onun dilə gətirdiklərinə reaksiyası Cənubi Qafqazdakı durumun gərginlik müjdəçisidir. Gərginlik isə çanağın Ermənistan hakimiyyətinin başında sınacağını söyləməyə əsas verir. Həm də ona görə ki, Rusiya daimi xəbərdarlıqlarla kifayətlənə bilməz. Ölkənin səbri bitməz-tükənməz deyil. Elə Azərbaycan da Ermənistanın şıltaqlıqlarına, qlobal oyunlara baş vuraraq, ambisiyalarını gerçəkləşdirmək cəhdlərinə, ən əsası isə sülh yolundakı manipulyasiyalarına həmişə dözümlü olmayacaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Bakı sülh yolunu qısaldır

## İndi Ermənistan hakimiyyəti digər maneələri aradan qaldırmalıdır

(əvvəli 1-ci səhifədə)

"Zəngəzur dəhlizi böyük kommunikasiya xətlərinin açılmasının tərkib hissəsidir. Bu layihənin iki vacib xüsusiyyətini qeyd edə bilərik. Birincisi, bu dəhlizdən keçəcək nəqliyyat növləri – dəmir yolu və avtomobil marşrutları ilə bağlıdır. İkinci amil isə onların fəaliyyət rejimidir". Mövzu ilə əlaqədar "XQ"yə açıqlamasında **Cənubi Qafqaz Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Fərhad Məmmədov**



diqqəti məsələnin hüquqi tərəfinə yönəltdi: "Birinci məsələ ilə bağlı Azərbaycan təxminən iki il ərzində Ermənistandan tələb edirdi ki, Araz çayı boyunca həm dəmir yolu, həm də avtomobil yolu sərbəst fəaliyyət göstərsin. Həmin ideyanı rəsmi İrəvan özünün "Dünyanın kəsişməsi" layihəsi kimi irəli sürdü. Xəritəyə diqqətlə baxsanız görəcəksiniz ki, ermənilərin layihəsində Araz boyu dediyimiz iki yol nəzərdə tutulub. Yəni, marşrut və nəqliyyat növü ilə bağlı Bakının tələbi İrəvan tərəfindən qəbul edilib.

Burada ən ciddi problem həmin nəqliyyat marşrutlarına nəzarət rejimi üzərindədir. Müqayisə üçün deyək ki, Azərbaycanın Qazax, Tovuz, Kəlbəcər, Laçın, Sədərək rayonlarından Ermənistana yollar var. Amma bunlardan fərqli olaraq, Zəngəzur dəhlizində xüsusi rejimin tətbiqi tələb olunur. Azərbaycanın tələb etdiyi həmin rejimlə bağlı üçtərəfli razılaşma mövcuddur. 2020-ci il 10 noyabr tarixli Bəyanatın 9-cu bəndi və 2021-ci il 10 yanvar tarixli ikinci üçtərəfli Bəyanat yalnız kommunikasiya xətlərinin açılmasını nəzərdə tutur. Rusiya da tərəf kimi hökumətlərarası komissiyanın işçi qrupunda bu işlərlə məşğuldur. Məhz Zəngəzur dəhlizində fəaliyyət rejimi məsələsində ziddiyyətlər mövcuddur".

Politoloq, əslində, üç ildən çox davam edən ziddiyyətlərin Ermənistanla Rusiya arasında olduğuna diqqəti çəkdi: "Bu problemi İrəvanla Moskva həll etməlidirlər. İndi İrəvanın təklif edəcəyi xüsusi rejimin Bakını qane edib-etməyəcəyi müzakirə mövzusudur. Azərbaycan Prezidenti bəyan edib ki, əgər Zəngəzur dəhlizi olmasa bu istiqamətdə heç bir nəqliyyat-kommunikasiya xətləri açılmayacaq. Məhz son və konkret qərar olmadığına görə, mövzu da donmuş vəziyyətdədir. Məsələnin sülh sazişinin mətnindən çıxarılması onun yüngülləşdirilməsi anlamına gəlir. Azərbaycan tərəfi konstruktivlik nümayiş etdirərək, Zəngəzur dəhlizi mövzusunun sülh sazişi imzalanandan sonrakı mərhələdə müzakirə edilməsini məqbul sayıb. Ermənistan da buna razılığını bildirib".




Bakının atdığı bu xoşniyyətli addımının qarşılığında rəsmi İrəvan da siyasi iradəsini toplayıb əsas qanunundakı nasist-revanşist müddəaları ləğv etməlidir.

* * *

Bəli, Bakı strateji baxımdan çox düzgün qərar verərək, Zəngəzur dəhlizi probleminin həllini sonrakı mərhələyə transfer etdi. Bununla həm də özünün sülh niyyətli olduğunu həm Ermənistana, həm onun arxasında duranlara, həm də, ümumiyyətlə, bütün dünyaya nümayiş etdirdi. **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** da hesab edir ki, Zəngəzur dəhlizi ilə bağlı müzakirələr uzana bilərdi: "Sülh sazişinin mətnində sərhəd danışıqları məsələsi yoxdur. Çünki hər iki tərəf yaxşı anlayır ki, bu da vaxtaparan məsələdir. Ermənistan sərhədlərlə bağlı mövzunun sülh sazişinə salınmasını çox istərdi. Amma, bu, indiki vəziyyətdə mümkün deyil. Gürcüstan Azərbaycanın strateji əməkdaşı olsa da, otuz ildir iki ölkə arasında sərhəd xətti axıra qədər müəyyənləşməyib. Kommunikasiya xətlərinin açılması məsələsi də o cümlədən. Zatən, Ermənistan qəsdən bu məsəni uzadır, Azərbaycan da alternativ marşrutlardan faydalanmaqda davam edir. Yükdaşımaların həcmi də artır. İkinci istiqamət isə Güney Azərbaycandan keçəcək Araz dəhlizi olacaq. İrəvan dəhliz məsələsini uzatdığına görə Bakı bu marşruta yaşıl işıq yandırdı. Buna görə Zəngəzur dəhlizi məsələsinin sülh sazişinin mətnindən





çıxarılması doğru qərardır. Bu qərar sülh müqaviləsinin, yaxud çərçivə sazişinin imzalanmasını sürətləndirə bilər".

E.Şahinoğlu hazırkı durumda sülhə aparan yolda yeganə maneənin qaldığını, onu da Paşinyanın ortadan qaldıracağını bildirdi: "Həmin tək maneə Ermənistan konstitusiyasında Azərbaycana ərazi iddiasını ehtiva edən müddəalardır ki, onlar əsas qanundan çıxarılmalıdır. Hesab edirəm ki, bu məsələ həllini tapandan sonra sülh və ya çərçivə sazişi imzalana bilər".

Bəs, hələ də sülhün dəstəkləyiciləri missiyasına sadiq qaldığını bəyan edən kollektiv Qərb bu məsələdə nə qədər səmimidir? Onun səmimiyyət dozasının barometri kimi okeanın o tayından içi silah-sursatla dolu hərbi təyyarələrin Ermənistana uçmasını göstərə bilərik. Bəlkə hayların "müttəfiqləri" sülhə Ermənistanı cəbbəxanaya çevirməklə nail olmağa çalışırlar? Paşinyan komandası son nəticədə heç bir fayda verməyəcək belə avantürist hərəkətlərə baş vurmaqdansa, Türkiyə və Rusiyanın sülh sazişinin imzalanmasında iştirakından faydalanmaq barədə düşünsə yaxşıdır. Bu variantda sülh onun üçün möhkəm və daha təminatlı olar. İrəvan, nəhayət, Qərbin məkrli planlarına alət olmaqdan çəkinməli, onun silahlandırma siyasətinə uymamalıdır. Axı, onun üçün baxıb ibrət götürməli tarixi reallıq gözünün qabağındadır: Rusiya 30 il sizi silahlandırdı, axırda nəyə nail oldunuz?

***İmran BƏDİRXANLI***
***XQ***

# Ağ evin silah "hədiyyə"si və söz "oyun"u

## Vaşinqton yaratdığı diplomatik qalmaqalla bağlı suala cavab verməkdən yayınıb

**Son üç gündə gündəmi zəbt edən mövzu ilə bağlı qəzetimiz geniş məqalə dərc edib. Mövzu ABŞ-nin hərbi təyyarələrinin Ermənistana silah və canlı qüvvə daşıması ilə bağlıdır. Məsələ hələ də gündəmdədir. Erməni mediası da diplomatik qalmaqala çevrilməyə "namizəd" sayılan bu olaya özünəməxsus şəkildə aydınlıq gətirməyə çalışıb.**

Xatırladaq ki, "Caliber.az" məlumat yayaraq bildirmişdi ki, ABŞ Silahlı Qüvvələrinə məxsus "Boeing C-17" hərbi yük təyyarəsi ilə Ermənistan silahlı qüvvələri üçün yeni nəsil silahlar – snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, zirehli texnika gətirilib. Qeyd olunur ki, ABŞ Ermənistanı silahlandırmaqla yanaşı, həm də onun ərazisindən istifadə etməklə İranda kəşfiyyat işləri aparır.

"Caliber.az"ın sorğusuna əsasən, ermənilərin "news.am" saytı məlum olayla bağlı ABŞ-nin Ermənistandakı səfiri Kristina Quinndən açıqlama alıb. Xanım səfir suala konkret cavab vermək əvəzinə yayılan məlumatın ətrafında diplomatikcəsinə söz oyunu quraşdırıb. Onun sorğuya cavab olaraq verdiyi açıqlaması iki cümlədən ibarətdir: "İyulun 24-də ABŞ və Ermənistan arasında əməkdaşlığın genişləndirilməsinə yönəlmiş "Qartal tərəfdaş" birgə hərbi təlimi uğurla başa çatıb. Biz təsdiq edə bilərik ki, gətirilmiş bütün ABŞ hərbi texnikası və şəxsi heyəti Ermənistanı tərk edib".

Aydın məsələdir ki, ABŞ–Ermənistan birgə hərbi təlimləri iki müstəqil dövlət arasında ikitərəfli münasibətlərə bağlı mövzudur. Bunu oxucularının nəzərinə çatdıran sayt səfirin açıqlamasına münasibət bildirərək, tam haqlı şəkildə qeyd edir ki, onun yaydığı xəbərlə səfir Kristina Quinnin açıqlaması fərqli mövzulardır.

"Söhbət Ermənistana gizli yolla 2 hərbi təyyarədə silah-sursat daşınmasından getdiyi halda, səfirlik hansısa "təlimləri" şərh edib. Bu, bir daha onu göstərir ki, ABŞ səfirliyinin bu faktlar qarşısında deməyə sözü yoxdur. Bunu yalan, dezinformasiya adlandıra bilməyiblər. Üstəlik, silah daşınması ilə bağlı saytın yaydığı xəbərdə ABŞ səfirliyinin cavabında qeyd olunan birgə hərbi təlimlərdən qətiyyən bəhs edilməyib".

Ardınca sayt olaya şərhində xüsusi vurğulayır ki, yuxarıda qeyd olunan silahların okeanın o tayından Ermənistana daşınması Azərbaycanı narahat etməyə bilməz. Yəni, belə məlum olur ki, biz hazırda sülhə nail olmaqdan danışır, sülh sazişini imzalanması üçün təkliflərimizi veririk, Ermənistan isə bölgədə yeni müharibəyə hazırlaşmaqla məşğuldur və Birləşmiş Ştatlar da ona



kömək edir . Buna nə ad vermək olar? Ermənistan 30 il ərzində necə işğalçı ölkə olubsa, necə Qərbin və digər haypərəst ölkələrin maşası kimi özünü indiki acınacaqlı duruma salıbsa, yenə də, utanıb-çəkinmədən, həmin oyununu davam etdirməkdədir.

Həm hərbi, həm də diplomatik cəbhədə qalib Azərbaycan Cənubi Qafqazda hər zaman sülhün tərəfdarı kimi çıxış edib. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Azərbaycanın heç bir dövlətin ərazisində gözü yoxdur. İntəhası, biz 50 nəfərə qədər erməni mənşəli amerikalı mütəxəssisin Ermənistana təşrif buyurmasından narahat olmaya bilmərik.

Bunları diqqətli izləyicilərin diqqətinə çatdıran sayt Vaşinqtonun Ermənistandan istifadə etməklə bölgədə özünün korporativ maraqlarını güddüyünü bildirir: "Gözlənilən İran–İsrail müharibəsi ərəfəsində ABŞ üçün Ermənistan kimi platsdarm lazımdır. Fəqət onun Ermənistanı silahlandırması tamam başqa məqsədi güdür. Burada artıq İran–İsrail müharibəsi bəhanəsi işə yaramır".

Oxuculara onu da bildirək ki, səfirin açıqlamasından sonra saytın yaydığı məlumatda açıq mətnlə bildirib ki, onlarda İrəvanın "Zvartnots" hava limanına eniş edən ABŞ-nin hərbi-nəqliyyat təyyarələrinin fotoşəkilləri var. Əgər məlumatı təkzib etmək üçün növbəti cəhdlər olarsa, həmin fotoları ictimailəşdirəcək: "Biz ABŞ-nin Ermənistandakı səfirliyini verdiyimiz məlumatın mahiyyətini təhrif etmək cəhdlərini dayandırmağa, əvəzində Cənubi Qafqazda gərginliyin dərəcəsini xeyli artıran vəziyyətə aydınlıq gətirməyə çağırırıq".

Maraqlıdır ki, olayla bağlı ABŞ-nin Azərbaycandakı səfirliyi susmağa üstünlük verib. Amma susan təkcə səfirlik deyil. Nədənsə, İran da bu məsələyə səssiz qalıb. Axı, burada söhbət okeanın o tayından göndərilən silah-sursatın, hərbi kontingentin Ermənistanın İranla sərhədində yerləşdirilməsindən gedir. ABŞ bununla həm də İran tərəfi üçün ciddi təhdidlər yaradır.

Rəsmi Tehranın bu olaya susqunluğunu başının Yaxın Şərqdə barıt qoxusunun gəldiyi son dərəcə gərgin durumla izah etmək mümkündür. İsraillə hərbi qarşıdurma vəziyyətində Tehrana Vaşinqtonla da münasibətləri tarıma çəkmək heç lazım deyil.

***İ.HƏSƏNQALA***
***XQ***

# Kanada mətbuatı Şuşadan nə yazıb?




**Xarici mətbuatda ICESCO tərəfindən Azərbaycanın Şuşa şəhərinə "İslam dünyasının mədəniyyət paytaxtı" adının verilməsi geniş işıqlandırılır.**

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, bu barədə Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, tanınmış siyasi şərhçi və jurnalist Reyçel Avraham Kanadanın www.thej.ca saytında dərc olunmuş məqaləsində yazıb.

"Şuşa: İslam dünyasının mədəniyyət paytaxtı" sərlövhəli məqalədə diqqətə çatdırılıb ki, Şuşa tarixdəki səyahətinə Qarabağ xanlığı dövründə əsası qoyulmuş, mədəniyyət və ticarət mərkəzi olan, inkişaf edən ipəkçilik və xalçaçılıq sənayesi sayəsində adı uzaq diyarlarda tanınan bir şəhər kimi başlayıb. 18-ci əsrdə şəhər Qarabağın paytaxtı olub. Bu dövrdə şəhərin böyüməsi və mədəni çiçəklənməsi baş verib, bura bir çox şairlərin, yazıçıların, musiqiçilərin və rəssamların vətəninə çevrilib.

Bildirilib ki, 19-cu əsrin sonlarında Şuşa artıq Qafqazın musiqi və mədəniyyət mərkəzi hesab olunurdu. Şəhər "Qafqazın İncəsənət Məbədi", "Kiçik Paris" və "Azərbaycanın Musiqi Evi" kimi tanınıb.

Qeyd olunub ki, şəhərdəki bir çox tarixi tikililərin günümüzə qədər gəlib çatmamasının səbəbi şəhər işğal etdikdən sonra ermənilərin burada törətdiyi vandalizmdir. Məhz 2020-ci ildə İkinci Qarabağ müharibəsi nəticəsində 30 illik erməni işğalından azad edilməsi Şuşada Azərbaycan mədəniyyətinin məhv olması təhlükəsini sovuşdurub.

***XQ***



# Milli Məclisə seçkilərə 22 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# Media nümayəndələri üçün müşavirə



**2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar avqustun 8-də media subyektlərinin nümayəndələri üçün müşavirə keçirilib.**

Mərkəzi Seçki Komissiyasının, Medianın İnkişafı Agentliyinin, Audiovizual Şuranın və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə keçirilən müşavirə bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin seçkilərdə fəaliyyətinin əsasları mövzusuna həsr olunub.

Müşavirədə çıxış edən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib ki, media subyektlərinin nümayəndələrinin seçkilərin işıqlandırılmasındakı rolu olduqca vacibdir. Onlardan böyük gözləntilərin olduğunu vurğulayan MSK sədri bildirib: "Keçirdiyimiz maarifləndirmə tədbirləri böyük əhəmiyyətə malikdir. Ona görə də qərəzli, yanlış informasiya yayanların qarşısını almaq üçün birlikdə mübarizə aparmalıyıq. Amma hər hansı xoşagəlməz hallara da hazırlıqlı olmalıyıq, çünki dünyanın heç bir ölkəsinin böyük tədbirləri ideal səviyyədə keçirməsi mümkün deyil".

Media nümayəndələrinin əməyini yüksək qiymətləndirən M.Pənahov dünyada medianın rolunun böyük önəm daşıdığını vurğulayıb.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olan Milli Məclisə seçkilər medianın gündəmində də aparıcı mövzuya çevrilib. Ölkəmizin siyasi mühiti üçün xarakterik olan demokratik və şəffaf seçkilərin işıqlandırılması prosesində iştirak edən media subyektlərinin peşəkarlıq funksiyasını uğurla yerinə yetirməsi üçün bütün lazımi şərait yaradılıb.

İcraçı direktor bildirib ki, Azərbaycanın peşəkar jurnalistləri bir tərəfdən cəmiyyətin ictimai əhəmiyyətli informasiya ilə təmin edilməsində, digər tərəfdən ölkəmizin informasiya mühitinin çirkləndirilməsi cəhdlərinin qarşısının alınmasında, müxtəlif yönləndirici manipulyasiyaların vaxtında müəyyənləşdirilib təsir dairəsinin minimuma endirilməsində fəallıq göstərir. "Təcrübə göstərir ki, seçkilər zamanı ölkəmizin informasiya mühitinə kənardan yönləndirilən təhdidlər artır. Həmçinin informasiya manipulyasiyasının bütün formalarının sistemli şəkildə tətbiq edilməsi halları müşahidə olunur. İctimai rəyi çaşdırmağa, Azərbaycan haqqında mənfi rəy yaratmağa yönəlmiş bu kimi hallara qarşı sayıqlığı daha da artırmaq lazımdır. Medianın İnkişafı Agentliyi seçki prosesini işıqlandıran media nümayəndələri ilə mütəmadi qarşılıqlı əlaqədədir və onların suallarını operativ qaydada cavablandırmaq üçün Mərkəzi Seçki Komissiyası ilə koordinasiyalı şəkildə fəaliyyət göstərməkdədir", - deyə Ə.İsmayılov əlavə edib.

Audiovizual Şuranın sədri İsmət Səttarov seçkiqabağı təşviqatın səsverməyə 23 gün qalmış başladığını və səsvermənin başlamasına 24 saat qalmış dayandırıldığını deyib: "Seçkiqabağı təşviqatda ən böyük məsuliyyət ictimai yayımçının üzərinə düşür. Dövlət büdcəsindən maliyyələşən yayımçıların hamısı ictimai yayımçı funksiyası daşısa da, seçkiqabağı təşviqat məhz qanunla ictimai yayımçı kimi tanınan İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən həyata keçirilməlidir. Dövlətə məxsus yayımçılar vasitəsilə seçkiqabağı təşviqat aparılmır. Qeydə alınmış bütün namizədlər üçün ödəniş həcmi və şərtləri eyni olmalıdır".

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid parlamentə seçkilərlə əlaqədar Mətbuat Şurasında "Qaynar xətt" yaradılacağını söyləyib. O bildirib ki, namizədlər və gələcək deputatlar üçün ən yaxşı təbliğat yeri media subyektlərində çıxışlar etməkdir. R.Məcid seçkilərdə iştirak edən namizədləri ödənişli təbliğat vasitələrindən istifadə etməyə, media subyektləri ilə əməkdaşlığa çağırıb: "Mətbuat Şurası seçkilərdə təşviqat məsələlərində qara piarın aparılmamasını, jurnalistlərin etik-davranış qaydalarına riayət etmələrini diqqətdə saxlayır, monitorinqlər keçirir.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvləri Milli Məclisə seçkiqabağı təşviqata dair ümumi tələblər, təşviqat subyektləri, onların hüquq və vəzifələri, ödənişli və ödənişsiz əsaslarla aparılan təşviqat prosesində media subyektlərinin rol və vəzifələrinə dair təqdimatlarla çıxış ediblər.

Aparıcı media subyektlərinin rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə seçki prosesinin ictimailəşdirilməsi, aşkarlığın və şəffaflığın təmin olunması, habelə seçki prosesinin müxtəlif mərhələlərində peşəkar media fəaliyyətinin təşkili barədə dolğun məlumat verilib, mövzular ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb.

Media subyektlərinin Milli Məclisə seçkilərdə sərbəst fəaliyyətinin daha da təkmilləşdirilməsinə və məlumatlılığının artırılmasına hədəflənən müşavirədə jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

*XQ*

# Seçki xəbərləri

### 1030 deputatlığa namizəd

Bunu Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında MSK sədri Məzahir Pənahov deyib. O, həmçinin qeyd edib ki, ümumilikdə 1508 nəfər namizədlik üçün müraciət edib.

### 6343 daimi seçki məntəqəsi

MSK sədri Məzahir Pənahovun sözlərinə görə, 1000 məntəqədə quraşdırılmış vebkameraların 972-dən görüntülər var: "Digərlərində isə kabel xətləri təzələnir və daha keyfiyyətli formaya salınır".

Azad edilmiş ərazilərdə də 34 daimi seçki məntəqəsi seçkiyə hazırdır, əlavə müvəqqəti məntəqələr də olacaq.

### Şəffaflıq təmin olunub

"Parlament seçkiləri ilə əlaqədar şikayət və müraciətlərə baxılmasında şəffaflıq təmin olunub". Bunu MSK sədrinin müavini Rövzət Qasımov deyib.

O bildirib ki, şikayət və müraciətlərə baxılması zamanı şəffaflığın təmin olunması üçün bütün məlumatlar MSK-nın internet səhifəsində yerləşdirilib.

### 228 beynəlxalq, 38 min 744 yerli müşahidəçi

Milli Məclisə seçkilərlə əlaqədar 43 ölkə və 24 qurumdan, ümumilikdə, 228 beynəlxalq müşahidəçi qeydə alınıb.

Bu rəqəm MSK-nın iclasında açıqlanıb. Məlumatda nəzərə çatdırılır ki, seçkilərlə əlaqədar 38 min 744 yerli müşahidəçi qeydiyyatdan keçib. Həmin müşahidəçilərdən 5621 nəfəri MSK-da, 33 min 123 nəfəri isə dairə seçki komissiyalarında qeydiyyatdan keçib.

### Məntəqə seçki komissiyalarına xəbərdarlıq

"Məntəqə seçki komissiyaları təşkilatçıdır, onlar özlərini seçkinin sahibi hesab etməsinlər". Bunu MSK sədri Məzahir Pənahov qurumun iclasında deyib. Onun sözlərinə görə, seçkilərdə seçki məntəqəsinin sahibi seçicilərdir: "Seçici səs vermək üçün məntəqəyə gəlir və ona görə də hər şey şəffaf təşkil edilməlidir".



### 399 min 50 məcburi köçkün seçici var

Bu statistika Mərkəzi Seçki Komissiyasının dünən keçirilən iclasında səslənib. Qeyd edilib ki, həmin seçicilər 574 məntəqədə səs verəcəklər. Həmçinin bildirilib ki, 10 məcburi köçkün rayonunun seçki dairələrindən 7-si tamamilə keçmiş məcburi köçkün seçicilərdən ibarətdir.

*İ.BƏDİRXANLI*
*XQ*

# Seçki marafonunda növbəti mərhələ

**Müsahibimiz 54 saylı Mingəçevir dairə seçki komissiyasının sədri Oqtay Məmmədovdur**

Bu gündən növbədənkənar parlament seçkilərinin daha bir mərhələsi – seçkiqabağı təşviqat kampaniyası başlanıb. Seçki Məcəlləsinə əsasən, təşviqat kampaniyası səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.

Növbədənkənar parlament seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqatın aparılmasına qeyd etdiyimiz kimi, bu gündən – avqustun 9-dan başlanıb, proses 31 avqust saat 08:00-a kimi davam edəcək. Seçkiqabağı təşviqatın aparılması qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən həyata keçirilə bilər. Beləliklə, seçkilərin bir mərhələsi başa çatır, növbəti mərhələ başlayır.

Bəs ölkə miqyaslı prosesə respublikamızın "Nur şəhəri" adlandırılan Mingəçevirdə hazırlıq necə gedir? Seçkilərin qanunvericiliyin tələblərinə uyğun, azad, ədalətli və şəffaf keçirilməsi üçün nə kimi işlər görülür? Bu və digər suallarla 54 saylı Mingəçevir dairə seçki komissiyasının sədri Oqtay Məmmədova müraciət etdik.

***– Oqtay müəllim, sədri olduğunuz 54 saylı Mingəçevir dairə seçki komissiyasında seçkilərə hazırlıq işlərinin gedişi ilə bağlı nələri qeyd edə bilərsiniz?***

– Digər seçki dairələrində olduğu kimi, 54 saylı Mingəçevir seçki dairəsində də seçkilərə hazırlıq prosesi Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi Milli Məclisə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planına uyğun olaraq aparılır. Bütün seçki məntəqələrimiz seçkilərə tam hazır vəziyyətdədir. Məntəqələr texniki cəhətdən zəruri olan bütün vasitələrlə təchiz olunub. Təbii ki, komissiyalar da tam şəkildə formalaşıb.

Avqustun 9-dan etibarən təbliğat-təşviqat kampaniyası başlayır. Seçki prosesinin azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün namizədlərə bərabər şərait yaradılıb. Namizədlərin seçicilərlə görüşmələri üçün dairə seçki komissiyasının təklifinə əsasən şəhər icra hakimiyyəti başçısının sərəncamı ilə müvafiq yerlər ayrılıb. Bütün məntəqələr MSK tərəfindən Seçki Məcəlləsi və digər maarifləndirici materiallarla, o cümlədən Milli Məclisə seçkilərlə bağlı zəruri təlimatlarla təchiz olunub.

Avqustun 12-dən etibarən məntəqə seçki komissiyalarının üzvləri üçün seçki günü görüləcək işlərlə, eləcə də seçki protokollarının tərtib edilməsi ilə bağlı treninqlərimiz başlayacaq. Treninqlər üç gün davam edəcək. Bundan əlavə, DSK üzvləri məntəqə seçki komissiyalarının üzvləri ilə mütəmadi görüşür, onları maraqlandıran suallar cavablandırılır. Çalışırıq ki, məntəqələr tərəfindən hər bir seçicini maraqlandıran suallar vaxtında cavablandırılsın və seçki prosesini yüksək səviyyədə, şəffaf şəkildə keçirək.

***– Təqdim edilən imza vərəqələrində və digər sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması prosesi başa çatıbmı?***

– Bəli, başa çatıb. Dairə seçki komissiyasında bununla bağlı 5 nəfərdən ibarət işçi qrupu fəaliyyət göstərir. Həmin qrup imza vərəqələrinin hamısını yoxlayıb və DSK-nın müzakirəsinə çıxarıb.

***– Seçki dairəsi üzrə statistik məlumatlar nədən ibarətdir?***

– Dairə seçki komissiyasının hüdudları daxilində 40 seçki məntəqəsi var. Bugünkü məlumata görə, seçicilərin sayı 50 min 211 nəfərdir.

***– Seçicilər hansısa məsələlərlə bağlı sizə müraciət edirlərmi?***

– Bütün məntəqələrin qarşısında lövhələr var. Biz həmin lövhələrdə seçici siyahılarını asmışıq. Vətəndaşlar hər bir məntəqənin ərazisində gedib sərbəst şəkildə öz adını orada axtarıb tapa bilər. Əgər yoxdursa, müraciət edə bilər. Bugünədək bununla bağlı müraciət daxil olmayıb. Bundan əlavə, MSK tərəfindən çap edilmiş vətəndaşları adlarını seçici siyahısında yoxlamağa çağıran plakatlar şəhərdə yayılıb. Seçkilərdə iştiraka çağırış edən materiallar var. Şəhərdə 8 ünvanda – insanların görə biləcəyi, qanunla icazə verilən yerlərdə bu cür plakatlar vurulub.



***– Əslində, bu gündən seçkilərin təbliğat-təşviqat mərhələsi kimi, namizədlər üçün gərgin və məsuliyyətli dövr başlanır...***

– Artıq bir neçə namizəd Seçki Məcəlləsinin tələblərinə əsasən hazırlanmış və məntəqə seçki komissiyalarının ərazisindəki göy rəngli lövhələrdə yerləşdirmək üçün nəzərdə tutulmuş təşviqat materialının bir nüsxəsini bizə verib. Sabahdan (yəni, bu gündən–S.H.) etibarən isə təşviqat materiallarını lövhələrdə yerləşdirəcəklər. Təşviqat lövhələrində hamı üçün bərabər şərait yaradılıb. Hər bir namizəd özünün təşviqat materialını o lövhələrdə yerləşdirə bilər. Bütün məntəqələrin qarşısında insanların görə biləcəyi yerdə həmin lövhələr yerləşdirilib.

Bu mərhələni seçki prosesinin ikinci mərhələsi də adlandırmaq olar. İndiki mərhələdə namizədlər seçicilərlə təbliğat-təşviqat işi aparacaqlar. Onların görüşlər keçirmələri üçün şəhər ərazisində qapalı və açıq olmaqla bərabər yerlər ayrılıb. Bu görüşlər də bizim tərəfimizdən tənzimlənəcək. Hamısına demişik ki, siz görüşlərinizin planını bizə təqdim edin. Yəni, ayın neçəsində, saat neçədə, hansı ərazidə seçicilərlə görüşmək istəyirsiniz. Çünki eyni vaxtda başqa namizəd də orada görüş keçirməyi nəzərdə tuta bilər. Biz həm orada asayişin təmin olunması məsələsini təşkil edək, həm də iki namizədin görüşü üst-üstə düşməsin. Yəni, bu məsələni də tənzimləmək üçün bizdə operativ iş görülür.

***– "Nur şəhəri"ndə seçki ab-havası hiss olunurmu?***

– Hiss olunur. İnsanlar seçkilərdə fəal iştirak etmək istəyirlər. Təkcə bir siyasi partiya deyil, bir neçə siyasi partiyanın nümayəndələri seçkidə iştirak edirlər. Bitərəflər, öz təşəbbüsü ilə namizədliyini irəli sürənlər də var...

***– Bütövlükdə, seçkilərin azad və ədalətli keçirilməsi üçün indi hansı işlər görülür?***

– Mingəçevirdə seçkilər azad, ədalətli və şəffaf keçiriləcək. 40 məntəqədən 12-sində müşahidə üçün veb-kameralar quraşdırılıb. Veb-kameralar səsvermə prosesi başlayan andan ta başa çatanadək fəaliyyətini davam etdirir. Seçki prosesi veb-kameralar vasitəsilə bütün dünya tərəfindən birbaşa izlənilir. İndiyədək DSK tərəfindən 239 müşahidəçi qeydə alınıb. Onlardan 159-u öz təşəbbüsü ilə müşahidə aparmaq istəyənlərdir. 80 nəfər isə Yeni Azərbaycan Partiyasının müşahidəçisidir. Müşahidəçilərlə bağlı səsləndirdiyim bu rəqəmlər son deyil. Qeydə alınan namizədlərin sayı artdıqca, müşahidəçilərin də sayı artır. Hər qeydə alınan namizəd özünün müşahidəçilərinin siyahısını bizə təqdim edir. Bu say avqusutun 9-dan artacaq. Güman edirik ki, müşahidəçilərin sayı 400-500 nəfər olacaq.

Məşvərətçi səs hüquqlu komissiya üzvlərinin sayı isə 41-dir.

***– Dairə ərazisində qeydiyyatda olan ən yaşlı və parlament seçkilərində ilk dəfə səs verəcək seçicilərlə bağlı statistik məlumatları bilmək istərdik...***

– Ən yaşlı seçicimiz Muradova Tamara Abduləziz qızıdır ki, onun 100 yaşı tamam olub. 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərindən sonra 18 yaşı tamam olmuş seçicilərin sayı isə 422 nəfərdir.

Komissiya üzvləri yaşı 100-ü ötmüş seçicinin evinə daşınan seçki qutusu aparacaqlar.

***– Bəs əlilliyi olan şəxslərin səsverməsi necə keçəcək?***

– Şəhərdə əlil arabası vasitəsilə hərəkət edən seçicilər var. Aydndır ki, əlil arabası ilə hərəkət edən seçicilər pilləkəni qalxa bilmirlər. Onlar üçün qeydiyyatda olduqları məntəqələrdə panduslar quraşdırılıb. Panduslar quraşdırılan məntəqələrin sayı 11-dir. Dairə seçki komissiyasının üzvləri ünvanları gəzirlər. Əgər elə hal olarsa, yəni əlil arabası ilə hərəkət edən seçici varsa, onun qeydiyyatda olduğu məntəqənin girişində də panduslar quraşdırılacaq.

Biz onların ünvanlarını öyrənir, məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin portalından da götürürük. Bu barədə Mərkəzi Seçki Komissiyasına da məlumat veririk.

*Səxavət HƏMİD*
*X Q*

# Dövlətin milli təhlükəsizlik strategiyası

**I MƏQALƏ**

**Biz qorxunun yolumuza çıxmasına imkan verməməliyik.**

**Nelson MANDELA**

### Strateji inkişafın milli prioritetləri

Azərbaycanın strateji inkişaf kursunun həyata keçirilməsi ardıcıllıqla davam edir. Bu kursda inkişaf paradiqması ifadə olunmuşdur. Onun başlıca faktorları müəyyən edilmişdir. Həmin faktorlar "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəddə təsbit edilmişdir. Milli prioritetlər orada aşağıdakı kimi müəyyən edilmişdir:

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi".

Göründüyü kimi, Azərbaycanın 2030-cu ilə qədər strateji inkişaf kursu iki məqamı özündə birləşdirir.

Birincisi, milli maraqları ciddi surətdə nəzərə almaqla dünyanın ən inkişaf etmiş ölkələri sırasına yüksəlmək.

İkincisi, inkişafda BMT-nin qəbul etdiyi 17 strateji inkişaf istiqaməti ilə uyğunluğa nail olmaq.

Bu iki məqamın sintezi Azərbaycanın milli, müstəqil, demokratik güclü dövlət olmasını, inkişaf etmiş vətəndaş cəmiyyətinə çevrilməsi və güclü yaradıcılıq (kreativlik) qabiliyyəti olan millət formalaşmasını təmin etməlidir (burada "millət formalaşması" ifadəsi hər hansı etnik və mədəni mənsubluqdakı dəyişiklik yox, dünyada yaradıcılıq qabiliyyəti ilə seçilən topluma keçid nəzərdə tutulur).

2030-cu il üçün qarşıya qoyulan strateji inkişaf məqsədinin ilk mərhələsi digər strateji sənəddə də konkret məzmun almışdır. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda start ili kimi 2020-ci il götürülmüşdür. 2022-2025-ci illər isə "aralıq illəri" adlandırılır. Əsas inkişaf parametrləri məhz aralıq illərində nəzərdə tutulan hədəfə çatmağa bütün əsasları yaratmalıdır. Son məqsəd isə 2030-cu ilə "Qüdrətli dövlət, yüksək rifah cəmiyyəti"-ni yaratmaqdan ibarətdir.

### Strateji inkişaf sənədləri və milli təhlükəsizlik

"Milli təhlükəsizlik haqqında" Qanun strateji sənədlərdən əvvəl qəbul edilmişdir. Qanunda yazılır ki, o, "Azərbaycan Respublikasının müstəqil, suveren, demokratik dövlət kimi inkişafı"na xidmət edir. Yəni milli təhlükəsizliyi təmin etməyin strateji məqsədi hər anda dövlətin inkişafının reallaşmasına yardım etməkdən ibarətdir.

Belə alınır ki, hər bir müasir müstəqil dövlətdə olduğu kimi, Azərbaycan Respublikasında da milli təhlükəsizlik strateji inkişaf kursu ilə sıx bağlıdır. Onu da vurğulayaq ki, hətta beynəlxalq elm təşkilatları fəaliyyətlərində sosial-iqtisadi inkişafın elmi əsasını milli təhlükəsizliyin təminatı ilə sıx əlaqədə araşdırırlar (məsələn, Beynəlxalq Elmi Şurada (İSC)). Bundan başqa, məlumdur ki, dünyada enerji təhlükəsizliyini milli təhlükəsizliyin tərkib hissəsi kimi qəbul edirlər. Bu bağlantının aktuallığı haqqında dünya siyasətçiləri dəfələrlə fikir söyləmişlər. Azərbaycan Prezidenti İlham Əliyev də ölkənin enerji strategiyasında enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin təminatı arasında sıx bağlantının olduğu haqqında bir neçə dəfə fikir bildirmişdir. İndiki mərhələdə Azərbaycanın enerji siyasəti çoxlu sayda dövlətin də milli təhlükəsizliyinə töhfə verməkdədir.

Deməli, strateji inkişaf kursu daxilində sosial-iqtisadi-mədəni inkişaf-elm-milli təhlükəsizlik bağlantısının mövcudluğu müasir dövrün tələbidir. O başqa məsələdir ki, hər bir dövlət onu bacardığı və təsəvvür etdiyi səviyyədə həyata keçirməyə çalışır.

Bu baxımdan Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" Qanununda strateji inkişafın təmin edilməsi ilə bağlı milli maraqların gözlənilməsi aspektində bir sıra məqamlar mövcuddur.

Qanunda yazılmışdır: "Azərbaycan Respublikasının milli maraqları – Azərbaycan xalqının fundamental dəyər və məqsədlərinin, habelə insanın, cəmiyyətin və dövlətin inkişaf və tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur". Aydındır ki, bunun üçün dövlətin və cəmiyyətin fundamental dəyərləri qorunmalı və inkişaf etdirilməlidir. İqtisadi potensialın artırılması bu prosesdə ayrıca önəm kəsb edir. O sırada elm, mədəniyyət və təhsil də xüsusi yer tutur.

Bu aspektdə təhsilin səviyyəsinin aşağı salınması, "Azərbaycanın tarixinə, dilinə, mədəni irsi və mənəvi sərvətlərinə qəsd edilməsi, onların xarici və daxili təzyiqlərə məruz qalması" milli təhlükəsizliyə təhdid kimi qəbul edilir. İnformasiya təhlükəsizliyinin təmini də, burada təbii ki, ayrıca yer tutur.

### İnkişaf strategiyası və zaman

Əlbəttə, ölkənin inkişaf strategiya kursunun milli təhlükəsizliklə sıx bağlı olmasının ümumi müddəaları məlumdursa və o, açıqdırsa, onda prosesin reallaşmasının



mərhələləri ayrıca maraq kəsb edir. Azərbaycanda strateji inkişafın zamandan asılı olaraq dinamik həyata keçirildiyi müşahidə edilir. Burada başlıca məqam ondan ibarətdir ki, sürətlə dəyişən regional və qlobal situasiyaya Azərbaycan Prezidenti strateji inkişaf kursunun davamlı reallaşması və bu aspektdə milli təhlükəsizliyin etibarlı təmin edilməsi kontekstində yanaşır. Buna görə də, indiki zamanda Azərbaycan Prezidentinin müşahidə edilən regional və qlobal geosiyasi proseslərə reaksiyası çox əhəmiyyətlidir. Buna aydınlıq gətirmək üçün öncə, indi baş verən geosiyasi proseslərə ümumi nəzər salaq.

### Risk və təhdidlərin miqyası

Rusiya–Ukrayna və İsrail–Fələstin münaqişələri geniş bir geosiyasi məkanda vəziyyəti çox gərginləşdirmişdir və bu proses davam edir. Proseslərin müxəlif inkişaf ssenarilərindən bəhs edirlər. Əsas olaraq da regional miqyasda müharibənin yaranması ehtimalından danışırlar. Reallıqda bu qənaətə əsas verən faktlar vardır. Hiss olunur ki, Yaxın Şərqi və ona yaxın olan Qafqazı bir neçə dövlətin toqquşma meydanına çevirməyə çalışırlar.

Belə bir şəraitdə ölkə daxilində sabitliyi təmin etmək və xarici təhdidləri, riskləri neytrallaşdırmaq mürəkkəb bir vəzifəyə çevrilir. Burada regionun böyük dövlətləri ilə münasibətlərdə balansı saxlamaq daha da aktuallaşır. Çünki yeni şərait meydana yeni şərtlər çıxara bilir. Onların bütövlükdə milli maraqları qorumağa mane olmaması üçün məharətli və fəal, uğura hesablanmış siyasi-diplomatik addımlar atmaq lazım gəlir. Azərbaycan Prezidenti bu istiqamətdə də kifayət qədər sanballı və nəticəverici fəaliyyət göstərməkdədir.

Onu vurğulayaq ki, hazırda qlobal və regional miqyasda olan risklər və təhdidlərin bir-biri ilə kəsişməsi müşahidə edilir. Müxtəlif böyük qüvvələr (əsasən ABŞ, Rusiya və İran) iddialı danışırlar. Onlar aktiv surətdə siyasi, diplomatik və hərbi ritorikanı sinxronlaşdırırlar. Bunun nəticəsində müəyyən nöqtələrdə qlobal təhlükələr və risklərlə regional təhlükə və risklər oxşar məzmun almış olur.

Geosiyasi mühitdə bu cür "ikilik" kifayət qədər qeyri-müəyyən vəziyyət yaradır. Bu situasiyada uğurlu olmağın nəticəverici modelini tapmaq ayrıca vəzifəyə çevrilir.

### Seçim anı

Kənardan gələn ciddi təhlükələr fonunda dövlət başçısının hansı paradiqmanı seçəcəyi əsas şərtdir. Bu zaman ya inkişaf paradiqmasına davam olmalıdır, ya da müharibə paradiqmasına keçid baş verməlidir. Bunların heç birini etməmək daha təhlükəlidir.

İndi Ermənistanın məhz fəaliyyətsiz dayandığını görürük. Bu ölkə regional miqyasda meydana gələn təhlükə və riskləri nəinki neytrallaşdırmaq üçün addımlar atır, hətta bir sıra təxribatçı davranışı ilə vəziyyəti daha da gərginləşdirir. Rəsmi İrəvan xarici güclərin regiona müdaxiləsi üçün imkanlar yaratmaqda davam edir. Onun bundan kənarda hansısa müstəqil addım atdığı görünmür.

Bir sıra KİV-də hətta Ermənistanın region üçün ciddi təhlükələr yaradacaq gedişlər etdiyi ilə bağlı informasiyalar gedir. Məsələn, hansısa uzaq dövlətin Ermənistan ərazisində başqa ad altında hərbi kontingent yerləşdirdiyi ilə əlaqədar informasiyalar yayılmışdır. Əgər bu doğrudursa, indiki şəraitdə kifayət qədər riskli vəziyyətə yol açıla bilər.

Bütün hallarda İsrail–İran münasibətlərinin gərginləşdiyi bir vaxtda rəsmi İrəvanın passivliyi mənfi haldır. Təəssüf ki, rəsmi Tbilisi də hansısa fəallıq göstərmir. Gürcüstan tamamilə daxili problemlərinə istiqamətlənmişdir.

Regionun üç dövlətindən ikisinin yaranmış situasiyaya bu cür passiv və xeyli laqeyd münasibəti ümumilikdə təhlükəsizliyin təminatı baxımından münbit olmayan şərait yaradır. Belə şərtlər daxilində rəsmi Bakının fəallığı buna görə olduqca ciddi əhəmiyyət kəsb edir və strateji inkişafla milli təhlükəsizliyin qarşılıqlı əlaqəsinin məzmunu ön plana çıxır.

Burada rəsmi Bakı iki funksiyanı eksklüziv və paralel yerinə yetirməli olur. Onlardan biri ölkənin milli təhlükəsizliyini strateji inkişaf kursuna uyğun təmin etməkdən ibarətdir. Çünki əgər bu şərt ödənməsə, inkişaf paradiqmasının özü zərər görmüş olar ki, bu da Azərbaycan üçün heç bir halda sərfəli deyildir. Digər funksiya isə regional təhlükəsizliyi təmin etməklə bağlıdır. Bunu yerli dövlət kimi faktiki olaraq təkbaşına etməlidir. Digər iki region dövlətindən hansınınsa tutarlı addım atacağını gözləmək çox çətindir. Hər iki funksiya da öz növbəsində mürəkkəb xarakterli vəzifələrin öhdəsindən gəlməyi tələb edir.

### Milli təhlükəsizlik və strateji inkişaf

Etiraf etmək lazımdır ki, bu, asan məsələ deyildir. Çünki, eyni zamanda, iki istiqaməti uyğunlaşdırmaq gərəkdir. Bir tərəfdən, strateji inkişaf paradiqmasının ruhu və ona nail olmağın fəaliyyət istiqamətləri saxlanmalıdır. Digər tərəfdən isə real olaraq dövlətin və ölkənin təhlükəsizliyi təmin edilməlidir. Burada inkişaf kursunu milli təhlükəsizliklə bağlamamaq mümkün deyildir. Çünki elə vəziyyət yaranmışdır ki, ölkədə durumun balansı pozula bilər və cəmiyyətin inkişafa istiqamətlənməsində sosial-psixoloji problemlər yaranar. Burada həlledici rolu böyük geosiyasi güclərin regional təsirlərini Azərbaycanın milli maraqlarına görə balanslaşdırmaq oynayır. Burada söhbət əsasən Qərb, Rusiya, İran və Türkiyədən gedir. Bu güclərin hər birinin regional situasiyaya təsirləri İsrail–Fələstin böhranı və son zamanlar İsrail–İran qarşıdurması fonunda fərqlidir.

Türkiyə bu qüvvələrin hər birindən fərqlənir. Ankara regionda Şuşa Bəyannaməsi əsasında Azərbaycanın strateji müttəfiqi kimi çıxış edir. Bugünədək Türkiyə–Azərbaycan strateji müttəfiqliyi regionun təhlükəsizliyinin təmininə xidmət etmişdir. Ankara bu prosesdə Azərbaycanın aparıcı rolunu qəbul edir. Deməli, indiki mərhələdə İsrail–İran münasibətlərinin daha da kəskinləşməsi şəraitində Azərbaycan-Türkiyə tandemi regionda öz konstruktuv funksiyasını yerinə yetirməkdə davam edəcək. Burada, şübhəsiz ki, Azərbaycanın milli təhlükəsizliyinin strateji inkişaf kursuna uyğun təminatı başlıca yer tutur.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Erməni irqçilik düşüncəsi gerizəkalıqdan qaynaqlanır

## "Armenizm"in "andranikizm", "tsexakronizm", "erməni fədaizmi", "erməni faşizmi" kimi "izmlər"i bəşəri təhlükə saçır

**(əvvəli qəzetin 7–8 avqust saylarında)**

### Ermənilərin "türk" anlayışı

***"Nə qədər ki, "türk"*** sözü bir erməninin beynində mənfi emosiya doğurur və onun ruhunu məhv edir, qərb qonşumuzla əlaqə qura bilməyəcəyik***".*** Bu, XIX əsrdə yaşayan Artsruninin deyil, müasir bir ermənin təsbitidir. Bu sətirlərin müəllifi Tatul Hakobyan davam edəndə ki, **"Türk"** sözü hecada və burunda işlədildiyi müddətcə qərb qonşumuzla hər zaman Qərbin mühakiməsində ola bilmərik. Amma onu dəyişdirmək imkanımız yoxdur"– demək müəyyən məsələlərə baxış fərqimiz ən azı bir– birinə yaxın deyil. Ümumən türk millətinə, Azərbaycan və Türkiyədə yaşayan xalqa nifrət erməninin iliyinə qədər işləyib"

Həm SSRİ zamanında, həm də Ermənistanın müstəqilliyindən sonra ayrı-ayrı hakimiyyətlər zamanında, bu, bir ideologiya kimi, ictimai rəy, reallığı görmə və hadisələri dəyərləndirmə qabiliyyəti ilə, türk düşmənliyini meydana gətirmə vasitələri və imkanları olan güc kimi ortaya çıxmışdır. Ermənilər özləri də onun adını belə qoymuşlar: Müasir erməni irqçiliyi. Bu ideologiyanın yayılmasının Ermənistan üçün nə dərəcədə faydalı olması və gətirəcəyi fəsadlar tez- tez müzakirə olunur.

Müasir erməni irqçiliyinin daha əvvəlki irqçi düşüncədən fərqi isə onun müasir çağa uyğunlaşdırılmasıdır. Ənənəvi erməni irqçiliyinin erməni faşizmi ilə bunun heç bir fərqi yoxdur, sadəcə olaraq, o, bir qədər "müasirləşdirlib". Özləri də etiraf edirlər ki, erməni şüurundakı "türk" sözü erməni düşüncə sisteminin "uğurudur". Bu sözlə onlar birləşirlər, bu sözlə bir araya gəlib mübarizə üsullarını seçir və fəaliyyətə keçirlər. "Erməni soyqırımı" adlı qondarma iddialar olmasaydı, erməni özünü dünyaya necə tanıdardı?" Əslində, bu yalanı ona görə uydurublar ki, erməni toplumunu bir arada tuta bilsinlər. "Türk" sözü işlənilərkən onun doğurduğu assosiyasiya nifrət aşılayır. Birisinin hərəkətini pisləmək üçün **"məgər sən türksən?"** deyirlər. Türk burada aşağılanır... Bu ifadə erməni toplumu içərisində yayğın şəkildə istifadə edilən ifadədir.

Ermənilər, bir qayda olaraq, həm Ermənistanda, həm də Azərbaycan və Türkiyədə yaşayan soydaşlarımızı "türk" adlandırmış və bu kəlməni bəzən təhqir anlamında işlətmişlər. Çoxlarımıza rast gəlinən bir ifadə var: **"Yaxşı oğlansan, heyif ki, türksən?"** Bu, erməninin bizə münasibətidir. Bu gün Ermənistan Respublikası deyilən ölkədə buranın qədim və yerli sakinlərinin– türklərin yaşamamasını bu millətin ideologiyasının mənfi nəticəsi olaraq görmək mümkündür. Bu da bizə münasibətin başqa bir ifadəsidir. Bu, azmış kimi, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafında olan rayonların işğal edilməsinə haqq qazandırmaq üçün xaricə və daxilə hesablanan bir Türkiyə– Azərbaycan düşmənçiliyi təbliğ olunmaqdadır. Və bu, çox təəssüf ki, bu, bir qrupun, bir partiyanın düşüncəsi deyil, rəsmi dövlət ideologiyasıdır.

### Ermənilərin irqçilik fəlsəfəsi

Müasir erməni irqçi düşüncəsi ənənəvi erməni irqçi təlimlərin, zaman içində formalaşmış ideoloji sistemin məhsuludur. İstənilən erməni belə hesab edir ki, o başqasından qana və irqi mənsubluğuna görə fərqlidir. Bir çox erməni elm adamları da daxil olmaqla, erməni toplumu içərisində Artsruninin, Garegin Njdenin, Raffinin, Andranikin, Silva Kaputikyanın, Zori Balayanın və başqa erməni irqçi düşüncə sahiblərinin ortaya atdıqları **"erməni ari irqi"**, **"erməni ariliyi"** ide-



yası tənqid olunmaq, onun sərsəmləmə olduğu, başqa xalqlara yanaşı, öz xalqına belə zərər verəcəyi qeyd olunmaq əvəzinə, onun böyük çoxluq tərəfindən dəstəklənməsi, əslində, erməni cəmiyyətinin normal, bəşəri ideyalara malik olmadığını göstərməkdədir. Əslində dünyada elmi dayaqları olmayan bütün irqçi fikirlərin ortaya atılması da eyni səbəbdən olmuşdur. Erməni türkoloq Tatul Hakopyan "Araratdan baxış. Ermənilər və Türklər" adlı kitabında "türk" toplumuna münasibəti belə ifadə edir: "...Osmanlılar üçün "türk" sözü milliyyətdən daha çox sosial mənalı idi və doğduğu yerə bağlılıqdan başqa bir şey deyildi.. Əsrlər boyu **"türk" sözü etiket kimi istifadə olunurdu, onlara biz " anlamaz türk", "yaramaz türk", "fırıldaqçı türk** "... deyirdik. Yalnız biz deyil, başqaları da türkü aşağı təbəqələrin nümayəndələri adlandırdılar, xüsusilə onu kəndçi sayırdılar.

"Türklərə və azərbaycanlılara nifrətlə dolu olan erməni irqçiliyinin bəzi ifadə şəkilləri fərqli olsa da, hədəf eynidir : **"Harada** türk görsən öldür! O sənin bioloji varlığın üçün təhlükədir". Bunu erməni milliyətçiliyinin əsasını qoymuş Artsruni XIX əsrin sonlarında yazmışdı. Türkləri və kürdləri qiymətləndirərkən Artsruni yazırdı ki, "...nə türklərin, nə də vəhşi kürdlərin keçmişi, tarixi, ədəbiyyatı, məktəbləri, iqtisadi istehsal ruhu və iş qabiliyyəti vardır. Təbiət, bütün xalqlara eyni cür qabiliyyətlərə sahib beyin verməmişdir. Türklərin və kürdlərin mədəniyyətə və sənətə meyilləri yoxdur. Dilləri vardır, ancaq çox geri qalmış və primitivdir. Bu dillərdə ən yaxşı ehtimalla orta məktəb təhsili verilə bilər".

Ermənilərin türklərə nifrət təliminin "babası" Qriqori Artsruninin "mədəni ari və semit irqləri" sırasında olan ermənilər Kiçik Asiyada bu xüsusiyyətlərinə görə qəsdən barbarların yönətimi altına verilmişdir. Avropa səhvini düzəltməlidir.

Şübhəsiz ki, ermənilər Qərb ölkələrinə güvənirdilər, onların razılığını almadan "sadiq təbəə" olduqları dövlətə baş qaldıra bilməzdilər. Ermənilər gizli fəaliyyət göstərməli idilər.

O gündən bu yana türklərə münasibətdə hansısa müsbətə doğru dəyişən bir şey olmuşdurmu? Dəyişən odur ki, erməni irqçi düşüncə "yerkramas.org" adlı Rusiya saytının başına Njdenin "Türklərə qarşı mübarizə bir gün belə dayanmamalıdır" fikrini çıxarıb və sayt açılan kimi oxucular bu fikirlə rastlaşırlar. Belə işlərə rəvac verilməsi nəticəsində erməni milliyətçiliyi ultra milliyətçiliyə, faşizmə qədər uzanmış, insanlıq üçün təhlükəli olan şəbəkələşmə yaşamışdır. Alman nasistləri kimi, ermənilər də bütün insanlıq tarixini fərqli irqlərdən gələn insanlar arasında bioloji baxımdan təyin olunan bir mübarizənin tarixi kimi qiymətləndirmişlər. İrqçi nasistlər xəstələri genetik baxımdan üstün irqlərindən ortaya çıxan ləkələr olaraq görür və bu kəslərin çoxalmasının, öz "ari irqlərinə" qarşı bir bioloji təhdid meydana gətirdiyinə inanırdılar. Bundan qorxurdular. Və onları öldürürdülər. Ermənilər də elədir. Onların irqçi ideyasını qəbul etməyən adamları ya fiziki cəhətdən aradan götürür, ya da onu cəmiyyətdən təcrid edirlər: " Sən ermənisənsə, bizim dediyimiz kimi olmalısan, bizim dediyimizi etməlisən" prinsipi ilə yanaşırlar.

2016-cı ildə Qaragin Njdeyə heykəl qoyulması müasir irqçi düşüncənin təntənəsi idi. Bir zamanlar Mussolinin yaratdığı faşist təlimindən və onun kitablarından təsirlənən və faşizmi bir dünyagörüşü olaraq mənimsəyən erməni ideoloq Garegin Njde elə eyni illərdə erməni irqçi təlimi olan Tsexakronu hazırlamışdır. Daha sonra bunları almanlar mənimsəmişlər. Öyünürlər ki, faşizmi biz italyanlardan və almanlardan öncə mənimsəmişik***".***

**(ardı var)**

***Qafar ÇAXMAQLI,***
***"XQ"nin Türkiyə müxbiri***

# Ölkəmiz IV Sənaye İnqilabının çağırışlarını həssaslıqla cavablandırır

**Dördüncü Sənaye İnqilabı fiziki, rəqəmsal və bioloji müstəvilər arasındakı sərhədlərin çulğalaşmasını təsvir etmək üsuludur. Bu, süni intellekt (AI), robototexnika, əşyaların interneti (IoT), 3D çap, gen mühəndisliyi, kvant hesablamaları və digər texnologiyalarda irəliləyişlərin birləşməsidir.**



Azərbaycan qlobal çağırışlara və tendensiyalara adekvat cavab verən və post-pandemiya dövründə yeni inkişaf trendlərinin tətbiqində ön sıralarda olmaqda qərarlıdır. Bu baxımdan ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafı üçün əlverişli infrastrukturun, o cümlədən Dördüncü Sənaye İnqilabının standartlarına uyğun şəraitin formalaşdırılması istiqamətində fəal iş aparılır.

Azərbaycan Prezidentinin 6 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılmış Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi də yeni reallıqlar şəraitində ölkəmizin mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiya həyata keçirmək məqsədinə xidmət edir. Mərkəz Azərbaycan Respublikası ilə Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı və bu sahədə əlaqələndirməni, həmçinin rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir.



Qeyd edək ki, 2020-ci il yanvarın 21-də İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalanıb. Bunun əsasında isə Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Mərkəzi yaradılıb. Bu, adıçəkilən qurumun ölkəmizi rəqəmsal və texnoloji mərkəzə çevirmək məqsədindən irəli gəlib.

Azərbaycan Dördüncü Sənaye İnqilabı Mərkəzi MDB məkanında yaradılan ilk bu cür mərkəzdir. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi 2021-ci il aprelin 1-dən bu ölkəmizdəki mərkəzin fəaliyyətini də koordinasiya edir. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi Dünya İqtisadi Forumunun süni intellekt və maşın öyrənməsi, əşyaların interneti və şəhər transformasiyası, eləcə də rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə əməkdaşlıq edir.

Bu platformalar çərçivəsində iqtisadiyyatın bir çox sahələrində müxtəlif istiqamətlərdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Eyni zamanda, Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin müxtəlif ölkələrdə yaradılmış Mərkəzləri ilə (Türkiyə, BƏƏ, İsrail, Yaponiya) sıx əməkdaşlığın qurulması və genişləndirilməsi üçün indiyədək bir sıra layihələr gerçəkləşdirilib. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi 4Sİ texnologiyalarının iqtisadiyyatın müxtəlif sahələrinə dair uğurlu həllərini özündə ehtiva edən tədqiqat sənədi hazırlayıb.

Azərbaycan Dördüncü Sənaye İnqilabı Mərkəzi fəaliyyətinin ilk vaxtlarından etibarən, bu istiqamətdə çağırışlara start verilib. Ən müasir texnologiyaların ölkəmizə gətirilməsinə, müasir metodların, üsulların tətbiqinə başlanılıb.

Hazırda işğaldan azad edilən ərazilərimizin bərpa və yenidən qurulması, həmin ərazilərdə iqtisadi inkişafın formalaşması ilə bağlı sistemli və kompleks tədbirlər həyata keçirilir və bu zaman Dördüncü Sənaye İnqilabının çağırışları diqqətdə saxlanılır. Layihələrin gerçəkləşdirilməsi zamanı müasir iqtisadi və texnoloji innovasiyaların tətbiqinə mühüm önəm verilir. Bu isə Qarabağın yaxın gələcəkdə "ağıllı region" və "yaşıl zona" kimi dünyada tanınacağına əlverişli şərait yaradır. Zəngilanın Ağalı kəndində Azərbaycanda ilk dəfə "Ağıllı kənd" layihəsinin həyata keçirilməsi bu baxımdan mühüm önəm daşıyır.

Xatırladaq ki, Ağalıda - "Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunub, öz doğma yurdlarına qayıdan sakinlər üçün hərtərəfli şərait yaradılıb. Burada aqrar sektorun təşkili və inkişafı ilə bağlı da bir sıra mühüm layihələr reallaşdırılıb.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının digər kənd və şəhərlərində də "ağıllı" və "yaşıl" yaşayış sahələri layihələri icra olunur. "Yaşıl" və alternativ enerjinin, "ağıllı idarəetmə" sistemi reallaşdırılır, xarici investisiya əsasında alternativ enerji həlləri məqsədilə "Günəş paneli tarlası" salınır, su anbarları əsasında "ağıllı akvakultura" sistemlərinin tətbiqi diqqətdə saxlanılır.

Yeri gəlmişkən, Dördüncü Sənaye İnqilabının çağırışlarına əsaslanılaraq sənaye zonalarında sahibkarlıq fəaliyyəti üçün zəruri infrastrukturun yaradılmasına, səmərəli işin təşkilinə böyük əhəmiyyət verilir. İnnovativ sahibkarlığın inkişafında bilik iqtisadiyyatının, 4-cü Sənaye İnqilabının elementlərinin tətbiqi, qlobal dəyər zəncirinə inteqrasiya, klasterləşmə, sənayenin rəqəmsal transformasiyası, "ağıllı biznes" modellərinin yaradılması kimi məsələlər daim önə çəkilir. Bütün bunlarla bərabər, lisenziyalar və icazələrin alınması üçün sahibkarlara "ASAN xidmət" mərkəzlərində və "KOB evləri"ndə əlverişli şərait yaradılır.

Dördüncü Sənaye İnqilabı Mərkəzinin yaradılması ölkəmizin dinamik inkişafında mühüm rol oynayır. Hazırda informasiya cəmiyyətinin intellektuallaşdırılmasına, IV Sənaye İnqilabının əsas trendlərindən biri olan süni intellekt texnologiyalarının yaradılmasına mühüm önəm verilir. Bu texnologiyaların Azərbaycanda geniş tətbiq olunması, əmək bazarında rəqəmsal transformasiyaların təsiri ilə yeni reallıqların yarandılması ilə bağlı əhəmiyyətli layihələr gerçəkləşdirilir. Məsələn, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) "İdeyadan biznesə" layihəsi çərçivəsində regionlarda innovasiya və Dördüncü Sənaye İnqilabının texnologiyalarından istifadənin təşviqinin genişləndirilməsi məqsədilə keçirdiyi tədbirlər də məhz bunun bariz ifadəsidir.

Azərbaycanın xarici iqtisadi əlaqələrində də bu məsələ prioritet istiqamət təşkil edir. Xarici ölkə nümayəndə heyətlərinin respublikamıza səfərləri zamanı keçirilən görüşlərdə IV Sənaye İnqilabının çağırışlarının müzakirəsi bu baxımdan böyük əhəmiyyəti ilə diqqət çəkir. Məsələn, Çin və Azərbaycanın rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlığı üçün yüksək institusional təminatlar yaradılması, hər iki ölkə arasında "Asiya və Sakit Okean Regionunda Transsərhəd Kağızsız Ticarətin Sadələşdirilməsi üzrə Çərçivə Sazişi"nin imzalanması və 2021-ci ildə Azərbaycan MDB ölkələri arasında rəqəmsal ticarətin inkişafında ən böyük artıma nail olması məhz bunun bariz ifadəsidir.

# "KOB gömrük anbarı"

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məlumatına görə, idxal sahəsində KOB subyektlərinin işinin daha da asanlaşdırılması məqsədilə "Bakı KOB evi"ndə "KOB gömrük anbarı" yaradılıb.**



Məlumatda qeyd olunur ki, "KOB gömrük anbarı" KOB-ların mallarının operativ şəkildə rəsmiləşdirilməsi, bu sahədə fəaliyyətin sürətləndirilməsi və daha da asanlaşdırılmasına xidmət edir. Bakı Baş Gömrük İdarəsi və Hava Limanı vasitəsilə ölkəyə gətirilən mallar üçün KOB subyektləri bu anbarın imkanlarından istifadə edə bilərlər.

Anbar 1350 kvadratmetr ərazini əhatə edir. Burada KOB subyektlərinin kiçikhəcmli malları saxlanılır və "Bakı KOB evi"ndə gömrük rəsmiləşdirilməsi həyata keçirilir.

"KOB gömrük anbarı" KOB-ların mallarının operativ şəkildə rəsmiləşdirilməsi, bu sahədə fəaliyyətin sürətləndirilməsi və daha da asanlaşdırılması məqsədilə Dövlət Gömrük Komitəsi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə təşəbbüsü ilə yaradılıb.

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov anbarın fəaliyyəti ilə tanış olublar.

DGK rəhbərliyi "Bakı KOB evi"ndə gömrük təmsilçiləri, logistika şirkətləri və idxal-ixrac əməliyyatları ilə məşğul olan sahibkarlarla görüşüb, müvafiq sahədə fikir mübadiləsi aparıblar. Həmçinin Dövlət Gömrük Komitəsinin rəhbərliyi "Bakı KOB evi"nin Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonasında fəaliyyət göstərən Dövlət Gömrük Komitəsinin xidməti pəncərələrinin fəaliyyəti ilə tanış olublar.

Qeyd olunub ki, "Bakı KOB evi"ndə fəaliyyət göstərən Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonasında Dövlət Gömrük Komitəsi, eləcə də gömrüklə əlaqəli xidmətlər təqdim edən gömrük təmsilçiləri, logistika şirkətləri və digər idxal-ixrac əməliyyatları ilə bağlı geniş spektrli xidmətlər təqdim olunur. Bu, idxal-ixrac əməliyyatları üzrə sahibkarların vahid mərkəzdən lazımi xidmətləri almasına, bununla da vaxt və əməliyyat xərclərinə qənaət etməsinə imkan verir.

# Sahibkarlara 119 milyon manat güzəştli kredit

**Bu ilin yanvar-iyul aylarında İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu (SİF) 3252 layihənin maliyyələşdirilməsinə 119 milyon manat güzəştli kredit verib.**



Fondun məlumatında bildirilir ki, verilmiş kreditlər hesabına 1764 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Xatırladaq ki, SİF Azərbaycan Prezidentinin "Sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 31 iyul 2018-ci il tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondunun bazasında yaradılıb. Onun nizamnamə kapitalı 1 milyard 7,307 milyon manatdır.

SİF sahibkarların güzəştli kreditlərlə maliyyələşdirilməsi çərçivəsində 20 bank, 9 bank olmayan kredit təşkilatı və 10 kredit ittifaqı ilə əməkdaşlıq edir.

Sahibkarlığın İnkişafı Fondunun fəaliyyətini ifadə edən yuxarıdakı göstəricilər son illər ərzində respublikamızda özəl sektorun dinamik inkişafına, iş adamlarının fəaliyyət sahələrinin genişlənməsinə yönələn diqqət və qayğıdan xəbər verir. Göründüyü kimi, bu gün də sözügedən istiqamətdə mühüm layihələr həyata keçirilir, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilir. Eyni zamanda, iş adamlarının xərclərinin azalması məqsədilə onlara prioritet sahələr üzrə güzəştli kreditlər ayrılması diqqətdə saxlanılır. Başqa sözlə, güzəştli kreditlər qeyri-neft sektorunda sənaye istehsalı və emalı, o cümlədən aqrar emal, kənd təsərrüfatı və anbar kompleksləri, logistika xidməti, akvakultura, yaşıl və innovasiya yönümlü layihələrin icrasına yönəldilir. Xatırladaq ki, regionlarda təhsil, turizm sahələri, Naxçıvan MR-də və işğaldan azad edilmiş ərazilərdə isə xidmət sektorları da güzəştli kreditlərin verilləcəyi prioritet sahələr sırasındadır.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və uğurlu islahatlar nəticəsində ölkəmizdə özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib, sahibkarlığın ÜDM-də payı 81 faizi, məşğulluqda payı isə 70 faizi keçib. Özəl bölməyə dövlət dəstəyinin daim diqqətdə saxlanılması qeyri-neft sektorunda müasir texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələrinin, infrastruktur sahələrin yaradılmasına, real sektora investisiya qoyuluşlarının sürətlənməsinə əlverişli şərait yaradıb.

# Dünya Bankının ölkəmizdə yeni layihələri

**Azərbaycanda "Yaşıl və dayanıqlı şəhər" konsepsiyası çərçivəsində birgə layihələrin perspektivləri barədə Dünya Bankı ilə ətraflı fikir mübadiləsi aparılıb.**




Bu barədə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev "X" sosial şəbəkəsindəki hesabında yazıb.

"Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Stefani Stalmayster ilə məhsuldar görüşümüz reallaşdı. Paytaxt Bakının Baş Planı və şəhərin dayanıqlı inkişaf istiqamətləri, habelə Azərbaycanda "Yaşıl və dayanıqlı şəhər" konsepsiyası çərçivəsində birgə layihələrin perspektivləri barədə ətraflı fikir mübadiləsi apardıq", - A. Quliyev qeyd edib.

Xatırladaq ki, "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" Baş nazir Əli Əsədovun 30 dekabr 2023-cü il tarixli qərarı ilə təsdiq edilib. Baş plan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə beynəlxalq tenderin qalibi olan Almaniyanın "AS+P Albert Speer + Partner Gmbh" şirkəti tərəfindən hazırlanıb. Onun hazırlanmasına yerli layihə təşkilatı qismində Bakı Dövlət Layihə İnstitutu, həmçinin mühəndis-kommunikasiya sistemləri, nəqliyyat və iqtisadi aspektlərin işlənməsi məqsədilə "Ramboll UK" (Böyük Britaniya) və "EY Advisory" (Fransa) şirkətləri cəlb edilib.

Baş planın icrasına, ümumilikdə, 93,6 milyard manat vəsaitin yönəldilməsi nəzərdə tutulur. Sənədə əsasən, bunun 60,5 milyard manatı dövlət büdcəsindən ayrılacaq, qalan 33,1 milyard manatı isə özəl sektorun payına düşəcək. Qeyd edilən dövrədək ərazi inkişafı üzrə 47,6 milyard manat vəsait xərclənəcək və bunun 30,9 milyard manatı özəl sektorun, 16,7 milyard manatı dövlət sektorun payına düşəcək.

# Vergi daxilolmaları 10 milyard manatı keçib

**Bu ilin yanvar-iyul aylarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 10 milyard 272,8 milyon manat vergi daxil olub.**



Bununla bağlı qurumun məlumatında daha sonra bildirilir ki, qeyd edilən göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 8,5 faiz azdır.

7 aylıq vergi daxilolmalarının 6 milyard 944,1 milyon manatı və yaxud 67,6 faizi qeyri-neft-qaz sektorunun payına düşüb. Bu isə 1 il əvvələ nisbətən 12,6 faiz çoxdur.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




## “Yaşıl dünya” naminə həmrəylik



# Azərbaycanın beynəlxalq COP29 səfərbərliyi

**Hazırda beynəlxalq ictimaiyyəti ciddi narahat edən iqlim dəyişikliyi dünyanın əsas çağırışlarından biridir. Bu qlobal problemin həlli isə ölkələrin sıx əməkdaşlığından və birgə qərarlar qəbul edilməsindən asılıdır. Azərbaycan bu taleyüklü məsələdə fəal rolunu BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməsi ilə bir daha təsdiqləyir.**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil Azərbaycan mediasına müsahibəsində ölkəmizin COP29-a hazırlıq səviyyəsindən, BMT-nin bu istiqamətdə dəstəyindən danışıb, iqlim fəaliyyəti ilə bağlı məsələlərdə inkişaf etməkdə olan ölkələrin rolu və bir sıra mövzular barədə şəraiti dəyərləndirib.

İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi respublikamızın COP29-a hazırlığından danışarkən bildirib ki, Azərbaycan bu nüfuzlu tədbirə ciddi hazırlaşır, bu istiqamətdə beynəlxalq təşkilatlarla açıq və səmimi əlaqələrini genişləndirir, öhdəliklərini, məsuliyyətlərini və qarşılaşdıqları çətinlikləri bölüşür. Təbii ki, beynəlxalq ictimaiyyət də Azərbaycanın belə bir taleyüklü məsələdə səmərəli fəaliyyətini dəstəkləyir, iqlim dəyişikliyi ilə mübarizəsini, maliyyə probleminin həllində rolunu yüksək dəyərləndirir.

Saymon Stil “İqlim dəyişikliyi ilə mübarizə səylərində inkişaf etməkdə olan ölkələrin rolunu necə qiymətləndirirsiniz və onlara hansı dəstək tədbirləri lazımdır” sualını isə belə cavablandırıb: “İnkişaf etməkdə olan dövlətlər iqlim böhranında ən az paya malik olan, lakin onun təsirlərindən ən çox əziyyət çəkən ölkələrdir. Bu səbəbdən onların qlobal böhrana ən çox töhfə verən və haqqında danışılan məsələdə məsuliyyət daşıyan inkişaf etmiş, sənayeləşmiş ölkələri bu istiqamətdə hərəkətə gətirmək üçün təsir göstərməyə mənəvi haqqı var. Həmçinin düzgün dəstək nəticəsində onlar yerli səviyyədə uyğunlaşma və dayanıqlığın yaradılması istiqamətində reallaşdırıla biləcək tədbirlərə liderlik edə bilərlər”.

S.Stil müsahibədə hazırda istixana qazı emissiyalarının azaldılmasında və iqlim dəyişikliyinə uyğunlaşmada problemə çevrilən maneələrdən də bəhs edib. İnkişaf etməkdə olan ölkələrə vəd olunan vəsaitlərin çatışmazlığından narahatlığını bildirib və bu problemin həlli yolları ilə bağlı fikirlərini diqqətə çatdırıb. Eyni zamanda, iqlim dəyişikliyi ilə mübarizədə səmərəli prinsiplərin mövcudluğunu, maliyyə və texniki çətinliklərin aradan qaldırılmasının mümkünlüyünü, lakin bu yolda siyasi iradənin çatışmadığını təəssüflə xatırladıb.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi COP29-un gündəmində maliyyə məsələsinin dayandığını, Azərbaycan sədrliyi tərəfindən bunu dəstəkləmək və asanlaşdırmaq üçün böyük səy tələb olunduğunu, eyni zamanda, hazırda 190 ölkə ilə yeni maliyyə məqsədi barədə razılığa gəlindiyini qeyd edib. İcraçı katib, eyni zamanda, bu il hazırlanacaq və gələn il Braziliyada təqdim ediləcək yeni iqlim planlarının ölkələrin milli səviyyədə öhdəliklərini müəyyənləşdirəcəyini, nəticədə emissiyaların 2030-cu ilə kimi yarıyadək, 2035-ci ilədək isə 60 faizə qədər azaldıla biləcəyinə əminliyini vurğulayıb.

S.Stil müsahibənin sonunda “Azərbaycan da Birləşmiş Ərəb Əmirlikləri kimi neft ölkəsidir və COP konfransına sədrlik edir. Neft ölkələrinin COP sədrliyi etməsinin, sizcə, nə kimi müsbət tərəfləri var” sualını belə cavablandırıb: “Dubayda əldə edilən qəti nəticə neft və qazdan, qalıq yanacaqlardan imtinanın vacibliyini göstərir. Bu, iqlim böhranından yaranan təsirlərlə mübarizədə əsas diqqət edilməli məqamdır. Neft, qaz və kömür istehsal edən dövlətlər qalıq yanacaqdan uzaqlaşmanın əhəmiyyətini və bunun emissiyaların azaldılmasına təsirlərini göstərməkdə lider ola bilər”.




Göründüyü kimi, bu gün bütün dünya zəlzələlər, torpaq sürüşmələri, daşqınlar, qasırğa və digər təbii fəlakətlərlə üz-üzədir. Təbii ki, bütün bunların ilkin səbəbi planetimizin qeyri-humanist münasibətlərin real hədəfinə çevrilməsidir. Əgər dünyamız həddindən artıq nüvə, döyüş sursatı ilə yüklənirsə, dağıdıcı, viranedici müharibələrin meydanına çevrilirsə, hansı normal həyat tərzindən söhbət gedə bilər?

Bir çox mənfi amillər də dünyanın ekosisteminə ziyan vurmaqdadır. Yaşadığımız elmi-texniki inqilab əsrində əhalinin sürətlə artması, yeni təbii ehtiyatların istifadəyə verilməsi, kənd təsərrüfatının sənayeləşdirilməsi, texniki tərəqqinin sürətləndirilməsi ətraf mühitə öz təsirini göstərir. Texniki tərəqqinin nailiyyətləri bir tərəfdən əhalinin təbiətdən asıllığını azaldırsa, təbii ehtiyatlardan səmərəli istifadəni asanlaşdırırsa, digər tərəfdən də bu nailiyyətlərdən düzgün istifadə olunmaması ekoloji tarazlığın pozulmasına gətirib çıxarır. Belə ki, hava, dəniz, şirin su hövzələri çirklənir, meşələr məhv olur, torpaq örtüyü sıradan çıxır, nadir bitki və heyvan növlərinin sayı azalır.

Dünyanın aparıcı elm mərkəzlərinin rəyinə görə, sözügedən qlobal istiləşməyə insanın istehsal və təsərrüfat fəaliyyəti nəticəsində atmosferə atılan karbon qazı və digər istixana effekti yaradan qazların miqdarının durmadan artması səbəb olub. Başqa sözlə, sənayeləşmə dövründən başlayaraq yanacağa (neft, daş kömür, təbii qaz və s.) tələbatın durmadan yüksəlməsi ilə əlaqədar atmosferə atılan karbon qazının miqdarı kəskin artaraq son dövrlərdə ciddi təhlükəyə çevrilib.

İqlim dəyişmələri üzrə ekspertlərin ümumi qənaətinə əsasən, qlobal istiləşməni məhdudlaşdırmağın yeganə yolu dünyanın enerji balansında alternativ enerjinin (külək, günəş və s.) xüsusi çəkisini kəskin artırmaqla, atmosferə atılan karbon qazı və digər istixana qazlarının miqdarının azaldılmasıdır.

Yeri gəlmişkən, hazırda dünyada əhalinin sayının kəskin artması və qlobal ekoloji problemlərin çoxalması nəticəsində “yaşıl enerji”dən istifadəyə tələbat getdikcə yüksəlir. “Yaşıl enerji” istehsalı qlobal istiləşmənin məhdudlaşdırılmasının, ekoloji fəsadlar yaradan karbon emissiyasının minimuma endirilməsinin, həmçinin ekoloji çirklənmənin qarşısını alır.

Bütün bunlarla bərabər, ənənəvi enerjidən “yaşıl enerji”yə keçid bu sahədə yeni yanaşmaların və texnologiyaların tətbiqini stimullaşdırır, eyni zamanda, “yaşıl enerji” sənayesinin inkişafı nəticəsində yeni iş yerləri yaranır ki, bu da davamlı inkişafı şərtləndirir.

# “Yaşıl” iqtisadiyyatın dünya təcrübəsi



**“Yaşıl iqtisadiyyat”ın formalaşması üzrə bir çox beynəlxalq təşkilatlar özlərinin müvafiq mexanizm və təşəbbüsləri ilə diqqət çəkirlər. “Yaşıl iqtisadiyyat”ın inkişafında ayrı-ayrı ölkələrin təcrübəsindən danışarkən onların həyata keçirdikləri islahatları və istifadə etdikləri mexanizmləri də nəzərdən keçirmək lazımdır. Belə ki, hər bir dövlətin bu sahədə özünəməxsusluğu var.**

ETN İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru Əlövsət Əliyev “Yaşıl iqtisadiyyat”ın inkişafında istifadə oluna biləcək mexanizmlərin bəzi variantlarını belə qeyd edir: 1) ekoloji vergi islahatları və alətləri (karbon vergisi, vergi güzəştləri və ixtisarları); 2) intensiv çirkləndirməyə görə cərimə; 3) ekoloji layihələrin mükafatlandırılması üçün “yaşıl subsidiya”lar, qrantlar, kreditlər; 4) ekoloji cəhətdən zərərli fəaliyyətlərə subsidiyaların verilməsinin aradan qaldırılması; 5) birbaşa dövlət xərcləri (ekoloji təmiz infrastruktur və ya təmiz texnologiya üçün tədqiqat və inkişaf (R & D) fəaliyyətinin təşkili), dolayı dəstək (ictimai zəmanətlər və s.).

Ə.Əliyev qeyd edilənlər barədə aydın təsəvvür yaranması məqsədilə diqqəti bəzi ölkələrin fəaliyyətinə yönəldir: “Böyük Britaniya “yaşıl iqtisadiyyat”ın inkişafı üçün bu istiqamətdə Feed-In Tariffs scheme (FITs) adlı güzəştli tarifdən istifadə edir. Almaniyada isə “yaşıl iqtisadiyyat”ın inkişafı üçün ekoloji vergi (Eco Tax) islahatından istifadə olunur. “Yaşıl subsidiya”lardan alət kimi istifadə edərkən xarici mühit amilləri (qloballaşma, beynəlxalq rəqabət, daxili bazar konyukturası, xüsusilə, istehlakçı psixologiyası və s.) nəzərə alınmalıdır.

Belə bir faktı da qeyd etmək lazımdır ki, “yaşıl iqtisadi sistem”ə keçid üçün beynəlxalq təşəbbüslər və proqramlar bir ölkəyə ziyan, digərinə xeyir verə bilər. Təşəbbüslərin həyata keçirilməsindən öncə düzgün qiymətləndirmə aparılmalı və insanların yeniliklərə sürətlə adaptasiyası üçün imkanlar yaradılmalıdır”.

Ə.Əliyevin fikrincə, “yaşıl iqtisadiyyat”a keçidin mənfi təsirləri daha çox inkişaf etməkdə olan ölkələrdə və təbii resurslarla zəngin olan dövlətlərdə özünü biruzə verə bilər. “Yaşıl iqtisadiyyat”a keçidin ilk dövrlərində buraxılan səhv digər mərhələlərdə sistemin səmərəsini azalda bilər. Bu vəziyyətdən isə daha çox inkişaf etməkdə olan ölkələr narahatdırlar. Çünki bu ölkələrin əhalisi insan inkişafı indeksinə, xüsusilə, təhsilin səviyyəsinə görə öndədirlər. Nəticədə inkişaf etməkdə olan ölkələr ilk pilləni daha uğurla tamamlayıb, II mərhələyə qədəm qoya biləcəyi halda, birinci dövrdə insan kapitalının qıtlığına görə uğursuzluqla üzləşə bilərlər. Elə buna görədir ki, bəzi inkişaf etməkdə olan ölkələr, “yaşıl iqtisadiyyat”ın inkişaf etmiş ölkələrin yeni bir siyasi oyunu olduğunu güman edirlər. Bu səbəblə inkişaf etməkdə olan ölkələrə, xüsusilə, neft-qaz kimi təbii ehtiyatlarla zəngin olan dövlətlərə daha ehtiyatla yanaşılmalıdır. Keçid dövrünün inkişaf etməkdə olan ölkələrdə də uğurla başa çatması üçün onların dəstəyə ehtiyacı var.

Bu kimi mütərəqqi məsələlərə əsaslanaraq onları tətbiq etməyi qarşıya mühüm vəzifə kimi qoyan Azərbaycanda da ətraf mühit qanunvericiliyinin əsas prinsipləri “yaşıl iqtisadiyyat”ın inkişafını nəzərdə tutur. Həmin prinsiplərə sosial-iqtisadi, mənəvi-əxlaqi problemlərin qarşılıqlı həlli, təbii sərvətlərdən dayanıqlı istifadənin təmin edilməsi, ekoloji tarazlığın qorunub saxlanması və mühafizəsi, eləcə də ətraf mühitin mühafizəsinin və təbii sərvətlərdən istifadənin tənzimlənməsində ekosistemli yanaşma aiddir. Bunlarla yanaşı, respublikada ətraf mühitin çirklənmsinə dair sanksiyalar, təbiətdən istifadənin ödənişli olması, ərazilərdə ekoloji tarazlığın gerçəkləşdirilməsi və pozulmuş təbii ekoloji sistemlərin bərpası kimi məsələlərin də diqqət mərkəzində saxlanılması zəruri sayılır.

Onu da qeyd edim ki, ölkəmizdə təbii ehtiyatların səmərəli istifadəsi və bərpası, təbiətdən istifadənin və ətraf mühitin mühafizəsinin iqtisadi stimullaşdırılmasının tətbiqi, ətraf mühitin biomüxtəlifliyinin qorunması, dövlət nəzarəti və ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət, ətraf mühitə vurulan zərərin qiymətləndirilməsi, ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişaf, insanın həyatının və sağlamlığının mühafizəsi, ətraf mühitin mühafizəsi sahəsində əhalinin və ictimai birliklərin iştirakı, ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, ekoloji qanunvericiliyin Avropa qanunvericiliyinə və beynəlxalq müqavilələrə uyğunlaşdırılması və s. prinsiplərə priorit istiqamətlər kimi yanaşılmalıdır.

Alim sonda bildirib ki, perspektiv dövrdə qabaqcıl ölkələrdə alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin daha çox artacağını nəzərə alaraq, ölkədə enerjidən səmərəli istifadə edilməli və yeni dayanıqlı enerji mənbələrinə və texnologiyalarına üstünlük verilməlidir.

Belə tədbirlərin həyata keçirilməsi isə getdikcə cəmiyyətdə yeni təfəkkürə, düşüncəyə əsaslanan müasir “yaşıl həyat tərzi”nin formalaşmasına əlavə imkanlar yaradacaq.



# İqlim dəyişikliyi və qlobal ekoloji savaş

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimov mediaya müsahibəsində iqlim dəyişikliyi ilə mübarizədə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin hər birinin özünəməxsus rolu barədə danışarkən, bildirib ki, inkişaf etmiş ölkələrdə iqtisadiyyat və sənaye sürətlə inkişaf etdiyindən həmin dövlətlərdə daha çox istixana qazı emissiyası müşahidə olunur. Buna görə də iqlim dəyişikliyi ilə mübarizədə daha çox məsuliyyət daşıyır, eyni zamanda, texnoloji yeniliklər, maliyyə dəstəyi və müasir infrastruktur sahələrində liderdirlər. Belə bir şəraitdə onlar Paris Sazişinə və COP28-də qəbul olunmuş Qlobal Baxış sənədinə uyğun olaraq ən yüksək ambisiyaya can atmalıdırlar. İnkişaf etməkdə olan ölkələrə dəstək göstərməli və iqlim maliyyəsini də artırılmalıdırlar.**

F.Mütəllimov bildirib ki, inkişaf etməkdə olan ölkələr isə adətən daha az iqtisadi resurslara malikdirlər və inkişaflarını davam etdirmək üçün enerji və infrastrukturun genişləndirilməsinə ehtiyac duyurlar: “Bu ölkələr iqlim dəyişikliyinə qarşı tədbirlər görmək üçün beynəlxalq maliyyə və texnoloji dəstək tələb edirlər. Həmçinin onların adaptasiya və dayanıqlı inkişaf üçün səyləri də böyük əhəmiyyət daşıyır. İnkişaf etmiş ölkələrin bu dövlətlərə maliyyə və texnoloji köməklik göstərməsi beynəlxalq iqlim dəyişiklikləri siyasətinin vacib bir hissəsidir”.

ETSN rəsmisi söyləyib ki, COP29-da ambisiyanın artırılması və fəaliyyətə təkan verilməsi üzərində qurulmuş iki paralel istiqamətə əsaslanan perspektiv baxış təqdim edilib və iqlim maliyyəsinin prioritet olduğu vurğulanıb: “Bu istiqamətlər bir-birini gücləndirir – birindəki irəliləyiş digərinə dəstək olur. Əsas mandatların və iqlim fəaliyyətinin uğurla yerinə yetirilməsi etimad, həmrəylik və inkişaf tempini artırmaq üçün vacibdir. COP29, Paris Sazişi qlobal iqlim tədbirləri və əməkdaşlığı üçün bir sınaq olacaq. Əsas diqqət İqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfinə yönəldilərək COP29-da bütün əsas və aktual məsələlərin həllinə nail olunması gözlənilir”.

F.Mütəllimovun sözlərinə görə, COP29 lazımi icra və dəstək vasitələrinin təmin edilməsində, eləcə də ümumi, lakin fərqləndirilmiş məsuliyyətlər və müvafiq imkanlar prinsipinin nəzərə alınması ilə hər kəsin mümkün olan ən yüksək ambisiyaya çatmasında mühüm rol oynayacaq.

***Səhifəni hazırladı:***
***Vaqif BAYRAMOV***
***XQ***

Təbiət imdada çağırır bizi

(əvvəli ötən sayımızda)



# Bəşəriyyət ekoloji bumeranqın hədəfində

İxtisasca mühəndis olmuş, lakin özünü sağaltmaq üçün 70 mindən çox tibbi ədəbiyyat oxumuş dahi yapon alimi Katsudzo Nişi yoğun bağırsaqla beyin arasında mövcud olan "baş magistralı" göstərməklə, təkcə sağlamlığın deyil, həm də şüurun, əxlaqın, xislətin mədə-bağırsaq sistemindən keçən qidanın kəmiyyət və keyfiyyətindən asılı olduğunu sübut edib.

Dünyanın son peyğəmbəri Məhəmməd Əleyhissəlam isə mədədən qlobal istiləşməyə kimi uzanan faciənin, sanki, "yol xəritəsini" cızıb. Allahın rəsulu buyurub: "Bütün fəsadların yuvası mədədir, bütün dərdlərin çarəsi pəhrizdir". Tam əminəm ki, bu müdrik insan "fəsad" deyərkən, təkcə xəstəlikləri nəzərdə tutmayıb. Fəsad çox geniş məfhumdur. Bura yalan da daxildir, oğurluq da, rüşvət də, fanatizm də, müharibə də, təbii fəlakət də, nəhayət, qlobal istiləşmə də. Peyğəmbər "mədə" deyərkən, heç şübhəsiz, hüceyrədən toxunmuş "dəyirmanı" deyil, ora tökülən "dəni" nəzərdə tutub. Yenə qida!

Maraqlıdır, nə üçün "ali şüurlu" insan həm özünə, həm də Təbiətə qənim kəsilib? Bütün zamanlarda və bütün məkanlarda müdriklər bəlanın kökündə nəfsi görüb: "Bizi öldürən qocalıq deyil, pis vərdişlərdir" (Hippokrat); "İnsanın ən güclü düşməni nəfsdir" (Məhəmməd peyqəmbər); "nəfsə qalib gələn - bütün dərdlərə qalib gələr"(el məsəli). 60 yaşadək mən də bu kəlamları qulaqardına vurmuşam, hamı kimi, pis vərdişlərin qulu olmuşam.

Çox erkən ağır xəstələndim. Bakının və Moskvanın ən məşhur alimləri məni 30 il ən güclü antibiotiklərlə müalicə etdilər. Nəticə acınacaqlı oldu: 40 yaşa çatanda iş qabliyyətimi tamam itirib, I qrup əlil kimi pensiyaya çıxdım. İki il ölüm yatağında qaldım. "Güclü" dərmanların köməyi ilə, sürünə-sürünə işə getdim. Çörək pulu qazana bildim, amma sağlamlığımı qaytara bilmədim. Dərmandan asılı vəziyyətdə yaşadım. Dərman daxili orqanlarımı bir-bir sıradan çıxartdı. 30 illik dərman-terapiyanın nəticəsi bu oldu ki, 1 xəstəliyi 8 elədim.

Beləliklə, dərmana və səhiyyə sisteminə inamım öldü. Alternativ axtardım. Çox oxuyurdum. Bolşevik rejimi çökəndən sonra ölkəyə Qərbdən çoxlu ədəbiyyat axdı. Dahi yapon alimi Nişinin sağlamlıq sistemi 3 vacib sualıma aydın cavab verdi: insan niyə xəstələnir, xəstə niyə sağalmır, sağlamlığı necə qaytarmaq olar?

Qeyri-sağlam həyat tərzini (səbəb) sağlam həyat tərzi ilə əvəz etdim, - 8 ağır xəstəliyin hamısı (nəticə) birdən getdi. Möcüzəmi baş verdi? Burda heç bir möcüzə yoxdur. Sadəcə, kimyəvi dəyişiklik gətirib bioloji dəyişikliyə çıxartdı.

Hippokrat, Qalen, İbn Sina, Şelton, Breqq, Zalmanov, Nişi, Laynus Polinq, Uoker və onlarla digər dahinin əsərlərini oxuduqdan sonra ağlıma gələn ilk fikir bu oldu ki, xəstəlik də, cəmiyyətdəki narahatlıq da, iqlim pisləşməsi də eyni kök üstə bitir və onları "müalicə edənlərin" heç biri səbəbə fikir vermir. Hər üç halda nəticə eyni olur- xəstə sağalmır, dünyada sülh və əminamanlıq yoxdur, iqlim şəraiti durmadan pisləşir. Halbuki insanı da, cəmiyyəti də, təbiəti də çox asanlıqla və çox ucuz "müalicə etmək" mümkündür.

Mən orqanizmə qulluq etmək elminin dərin qatlarına baş vurandan sonra, "xoşbəxtliyin kimyəvi düsturunu" hazırladım və "Bizi yaşadan da qidadır, öldürən də" adlı əsərimə daxil etdim. Çox sadə həqiqətdir: "Canlı qida - canlı qandır, canlı qan - sağlam candır, sağlam can - sağlam düşüncədir, sağlam düşüncə - sağlam tələbatdır, sağlam tələbat - sağlam qərardır, sağlam qərar - faydalı əməldir, faydalı əməl - səadətdir".

Bu düsturu, eyni uğurla, həm insan formalaşdırmaq prosesində tətbiq etmək olar, həm dövlət quruculuğunda, həm də təbiətin mühafizəsində. Əgər bəşəriyyət bu sadə düsturu öz həyatına tətbiq etsə, tüğyan edən xəstəliklərə də son qoyular, cinayətlərə də, münaqişələrə də, müharibələrə də. İqlim problemi də həll olunar.

Sizi bu fikirin reallığına inandırmaq üçün bir sadə müqayisədən istifadə edəcəyəm. Gözünüzün qabağına-qidalanma prinsiplərinə dəqiq əməl edən adamı da gətirin, ölü qida yeyən, qidaları qarışdıran, spirtli içki qəbul edən, papiros çəkən, "iynədə oturan", nəşə çəkən adamı da. Onların düşüncəsini, davranışını, danışığını müqayisə edin. Birinci kateqoriya nə özünə pislik edir, nə ətrafdakılara, nə də Təbiətə. İkincilərdən isə hər cür bəd əməl gözləmək olar. Birincilərin arasında cinayətkar axtarmaq axmaqlıqdır. İkinci mühit isə yalnız cinayətkar yetişdirir. Cinayətkar isə təkcə özünə və bəşəriyyətə deyil, ondan qat-qat çox Təbiətə zərbə vurur. Elə bir qaniçən hökmdar, insanları qırmaqdan həzz alan sərkərdə, təbiəti məhv etmək üçün yeni üsullar axtaran alim tapmazsan ki, ləzzətli xörək, içki, narkotik düşkünü olmasın.

İndi özünüz hesablayın, görək, planetimizdə bəşərə və təbiətə təpik vuran nə qədər cinayətkar var və onları hansı mühit yetişdirir? Cəmiyyətə və təbiətə ən ağır zərbəni dünya malından doymayan acgözlər vurur. Çünki dünyanı onlar idarə edir, qanunlar onların diktəsi altında yazılır. Mütərəqqi qanunların yolunu onlar kəsib. Varlıların sayı artdıqca kamil insanların, Planet Vətəndaşlarının sayı azalır, cinayətkarların sayı artır, iqlim şəraiti daha da pisləşir. Çünki tarazılıq qanunu pozulur.

Yaxşı yadımdadır, İkinci Dünya müharibəsi vaxtı dünyada 5–6 milyoner olardı, ya olmazdı. O vaxt xəstəlik də az idi, münaqişə də, təbii fəlakətlər də. İndi daha milyoneri adam yerinə qoymurlar, indi söhbət milyardlardan gedir. Elə təkcə ABŞ-da 955 milyarder var. Bu həm də haqqın, ədalətin tapdalanması, əmək və məhsul bölgüsü qaydasının kobud şəkildə pozulması, acgözlük xəstəliyinin artması deməkdir. Varlıların sayı hansı sürətlə artırsa, ümümbəşəri bəlalar həmin sürətlə çoxalır, üstümüzə gələn Sunami bir o qədər yaxınlaşır.

Fəlakəti yaxınlaşdıran və sürətləndirən bir amil də budur ki, zənginlər sülh, əminamanlıq, dinclik, xoşbəxtlik xəzinəsinə, kamil planet vətəndaşı formalşdırmağa, Təbiəti qorumağa bir sent də xərcləmir. Onlar pulu silah, dərman, ölü qidalar, maşın istehsalına, idmanın ən iyrənc formalarına, kosmik uçuşlara, münaqişələrə, terroçuluğa, separatizmə, müharibəyə qoyurlar. Belə vəsait sağlamlığın qənimi, təbiətin düşmənidir.

Qanunların qüsuru üzündən, qəpik-quruş alan alim, jurnalist, siyasətçi, məmur, yeri məhvərindən qoparmağa qadir olan milyarderin ziddinə gedə bilmir. Mən bir yazıçı-jurnalist olaraq beynimi işə salıb bəşərin "xoşbəxtlik axtarışı" barədə bir vərəq yazı yazdım: "Ümümdünya Natural Gigiyena hərəkatının manifesti". Bildirdim ki, mənən və cismən sağlam xəstə olan kütlə üzərində sağlam cəmiyyət qurmaq mümkün deyil. Tərtib etdiyim layihələr sağlamlıq və iqlim təhlükəsizliyi problemləri ilə yanaşı, bəşəriyyəti müdam narahat edən ərzaq təhlükəsizliyi problemini də həll etməyə qadirdir.

Naturopat alimlər dəqiq hesablayıblar ki, müasir insan qəbul etdiyi qidanın yalnız 18-20 faizini mənimsəyir. Qalan 80-82 faiz şlaka çevrilir. Bunun həqiqət olduğunu mənim təcrübəm də təsdiq edir. Mən 1995-ci ildən çörək və un məmulatları, yarmalar, bişmiş dənlər və paxlalı bitkilər, ət, kürü, yağ, şəkər, şokolad, şirniyyat, çay, kofe, duz və çox sayda digər ölü qidaları qəbul etmirəm. Əsas qidam meyvə, tərəvəz, göyərti, qoz, fındıq, badam, tumlar və baldır. Mən ərzağa 80 faiz az vəsait xərcləyirəm. Ən başlıcası isə daha həkimə və dərmana pul vermirəm.

Bu il 90 yaşım tamam olacaq. Özümü çox gümrah hiss edirəm. Qabaqlar bir məqalə yazanda bir həftə özümə gələ bilmirdim. 62 yaşa qədər bir əsər də yazmamışdım. Sağlam həyat tərzinə keçəndən sonra 22 elmi-publisistik və bədii əsərim işıq üzü gördü. "Möcüzəsiz mözcüzə" əsərim fars və türk dilinə tərcümə olunub. Yeni əsərlər üzərində işləyirəm. Bütün əsərlərimi və məqalələrimi kompüterdə özüm eynəksiz yazıram. Halbuki 60 yaşa kimi eynəksiz nə yaza bilirdim, nə də oxuya.

Tez-tez müsahibələr verirəm, Facebook səhifəsində "Şəfa məktəbi" açmışam, hər gün onlarla suala cavab verirəm. Yorulmaq bilmirəm. Sağlam və gümrah qalmağın yolunu bilirəm. Hələ 60 il yaşamaq istəyirəm. Sübut etmək istəyirəm ki, insan uzunömürlü məxluqdur. Həm də bəşərə deyiləsi çoxlu sözüm qalıb. Bunlar mənim şücaətim deyil, SHT-nin qüdrətidir.

COP29 bir acı həqiqətin gözünə dik baxmalı və ucadan deməlidir: "Nə qədər ki, insan qidada fayda deyil, ləzzət axtarır, onun damarlarında çürük qan axacaq, xəstəliklər, münaqişələr, müharibələr, təbii fəlakətlər, iqlimin pisləşməsi davam edəcək". Cəmiyyətin durumu da, təbiətin halı da, anaların tərtib etdiyi menyudan asılıdır. Menyular isə güclü reklamların təsiri altında gündən-günə pisləşir. Ölü qida sıxışdırıb canlı qidaları süfrədən çıxarır.

Sonda tibb elmləri doktoru Zalmanovun bir dahiyanə kəlamını da yada salmaq istəyirəm. Təbib deyirdi: "Bütün elmlərin şahı, zirvəsi orqanizmə qulluq etmək elmidir". Gəlin, əl-ələ verib, ona nail olaq ki, bəşəriyyət dünya təhsil sisteminin təməlinə bu faydalı elmi qoysun. Bu gün təbiət qanunlarının daha kobud formada pozulduğu bir zamanda, dərman biznesi faydalı fəaliyyətləri üstələdiyi mühitdə Gigiya ruhuna və Zalmanov dühasına daha böyük ehtiyac duyulur.

Bu gün bəşəriyyət özü atdığı ekoloji bumeranqın hədəfinə çevrilib. Təbiət dil açıb dünyamızı, canlı həyatı imdada çağırır. Bakı ekoloji prosesi bu çağırışa çağdaş cavab olacaq.

*Ərşad ƏZİMZADƏ,*
*"Ana Təbiət" Natural Gigiyena Mərkəzinin rəhbəri, yazıçı-jurnalist*

---

Yazdıqlarımıza qayıdırıq

# Gözdən əlillərin ittihamları niyə qəbul edilmir?

**"XQ"nin 2 avqust 2024-cü il tarixli sayında "Gözdən Əlillər Cəmiyyətinin (AzGƏC) əmlakını kimlər ələ keçiriblər?" sərlövhəli yazıda gözdən əlil vətəndaşların cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədilə bir vaxtlar yaradılan çoxsaylı iş yerlərinin sıradan çıxarılmasından, tikilib istifadəyə verilən ictimai-iaşə müəssisələri, məktəb, klub, kitabxana və digər obyektlərin əksəriyyətinin satılmasından və qapılarından cəmiyyət sədrinin də açmaq fikrində olmadığı paslı qıfıllar asılmasından bəhs edilirdi. 499 nəfər dünya işığına həsrət əlilin redaksiyamıza ünvanladıqları şikayət məktubunda sadalanan problemlər diqqətə çatdırılırdı. Yazıda 2002-ci ildən quruma sədrlik edən Səmyar Abdullayevin cəmiyyətə məxsus bütün əmlakı qoruyub saxlaya bilmədiyi, nəticədə əlillərin məşğuliyyətsiz qaldıqları, itkilərə məruz qoyulduqları bildirilirdi.**



Yeri gəlmişkən, kollektiv müraciətinə əsaslanan yazının sonunda gözdən əlil vətəndaşların şikayətçi olduğu qarşı tərəfin – AzGƏC İctimai Birliyinin rəhbəri Səmyar Abdullayevin də mövqeyinin qəzetimizdə açıqlanmasının nəzərdə tutulduğu vurğulanırdı.

Məqalə dərc ediləndən bir neçə gün sonra ictimai birliyin sədri Səmyar Abdullayevin imzası ilə redaksiyamıza daxil olan məktubda söylənən tənqidi fikirlərin qərəzli olduğu, iddiaların həqiqəti əks etdirmədiyi bildirilib. Qurum rəhbəri, eyni zamanda, şikayətçilərin müxtəlif vaxtlarda belə ittihamedici ərizələri hüquq-mühafizə orqalarına, Auditorlar Palatasına, Dövlət Əmək Müfəttişliyinə də göndərdiklərini, lakin söylənilənlərin əsassız olduğunu, AzGƏC-in fəaliyyətində nöqsan aşkarlanmadığı qənaətinə gəlindiyini vurğulayıb. S.Abdullayev ictimai birliyin şəffaf, ədalətli, humanist və qanuni fəaliyyətinə kölgə salmağın mümkünsüzlüyünü də bildirib.

S.Abdullayevin redaksiyamıza ünvanladığı məktubda gözdən əlil vətəndaşlar üçün tikilən mənzillərin bölüşdürülməsində də neqativ hallara yol verilmədiyi, Nərimanov Rayon Prokurorluğu və Ədliyyə Nazirliyi tərəfindən aparılan yoxlama materiallarında da bu məsələnin öz əksini tapdığı və bunların gözdən əlil vətəndaşların diqqətinə çatdırıldığı da qeyd edilib.

İctimai birlik sədrinin imzaladığı məktubda diqqətçəkən, eyni zamanda, təəccüb doğuran bir məqama, xüsusi nəzər salmaq istərdik: "AzGƏC-in mərkəzi inzibati binası və yaşayış üçün heç bir şəraiti olmayan yataqxanası sökülərək yerində tikilən binada 132 gözdən əlil ailə mənzillə təmin edilib. Binanın alt mərtəbəsində isə Cəmiyyətə 600 kvadratmetr qeyri-yaşayış sahəsi verilib... Sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov həmin vaxt qanunsuz olaraq AzGƏC-ə məxsus yeni binanın alt mərtəbəsindən 600 kvadratmetr sahəni nazirliyin balansına daxil edib və burada Dövlət Əmək Müfəttişliyinin labaratoriyası yerləşdirilib. Dəfələrlə bu məsələ qaldırılsa da, heç bir müsbət nəticə əldə edilməyib. Halbuki həmin sahədə AzGƏC-in mərkəzi inzibati ofisinin yerləşdirilməsi nəzərdə tutulurdu. Buna görə də uzun illərdir ki, AzGƏC öz fəaliyyətini kirayə götürdüyü obyektlərdə davam etdirir".

Burada sabiq nazir Səlim Müslümovun AzGƏC-ə məxsus sözügedən binanın alt mərtəbəsini, necə deyərlər, "qamarlaması" qarşılığında ictimai birliyin qəti mübarizə aparmaması, yarı yolda dayanması şübhəli görünür. Doğrudan da, belə idisə, onda "dəfələrlə qaldırılan" bu məsələ Səlim Müslümovun səs-küylü məhkəmə prosesində niyə dilə gətirilmədi? Yəqin ki, o zaman məhkəmə prosesində problemin ədalətli həlli kiməsə sərf etməyib. Belə olmasaydı, S. Abdullayev də neçə illər AzGƏC-nin normal fəaliyyəti üçün kirayə götürdüyü obyektlərə külli məbləğdə vəsait xərcləməzdi. Həmin vəsait əlil şəxslərin min bir qayğısına yönəldilərdi.

Sonda qeyd edək ki, AzGƏC rəhbərinin gözdən əlil vətəndaşların ona ünvanladıqları ittihamlarda özünü təqsirsiz sayması inandırıcı və səmimi görünmür. Çünki sıralarında 27 minə yaxın üzvü birləşdirən ictimai cəmiyyətin yazının əvvəlində vurğuladığımız kimi, çoxsaylı iş yerlərinin itirilməsi, ictimai-iaşə müəssisələri, məktəb, klub, kitabxana və digər obyektlərin əksəriyyətinin fəaliyyətsizsizliyi təkzibedilməz fakt olaraq qalır. Bu vəziyyət gözdən əlillərin göz dağına çevrilərək onların ürəklərini sızladır. Bunu isə danmaq, hüquq-mühafizə orqanlarının yoxlamalarına əsaslanıb, necə deyərlər, uca səslə "günahsızam" demək mümkün deyil.

Nəhayət, cəmiyyətin ümidinə qalmış 27 min əlacsız əlil haqlıdır, yoxsa kəsərsiz rəhbərliyi ilə problemlər içərisində boğulan AzGƏC sədri? Belə yerdə deyiblər ki, dəvədən yıxılıb "höt-höt" deməyindən də qalmır...

*Vaqif BAYRAMOV*
*XQ*

---

Sağlamlıq

# Yodun faydası və qaydası

**Gündəlik həyatımızda tez-tez istifadə etdiyimiz dərmanlardan biri də yoddur. Əlini kəsdin – yod sürt, ayağın sıyrıldı – yodla sil, soyuqladın – kürəyinə yod çək, boğazın ağrıdı – yod qarqarası et... Bəli, yod əlyetən və təsirli tibbi vasitədir: həkimlər buyurur, apteklərdə satılır.**

Sosial şəbəkələrdə, müxtəlif sağlamlıq qruplarında da yodun istifadəsi ilə bağlı çoxlu paylaşımlara, rəylərə rast gəlirik. Yəni yodun faydaları özünü o qədər doğruldub, ondan istifadə o dərəcədə populyarlaşıb ki, həkim və əczaçı olmayan da bu məlhəmdən bələdliklə söhbət açır. Şübhəsiz, yodun bəlli və bizə məlum olmayan faydaları barədə tibb mütəxəssisi daha mükəmməl söz deyə bilər.

Elə buna görə də yod haqqında elmi-maarifləndirici bilgi almaq üçün Azərbaycan Tibb Universitetinin farmakologiya kafedrasının müdiri, XQ-nin səhiyyə eksperti Musa Qəniyevə müraciət etdik. Professor əvvəlcə yod preparatları ilə bağlı bir neçə ay öncə yaranmış narahatlığın əsassızlığına münasibət bildirdi.

**Alim mövzunun sosial şəbəkələrdə yenidən gündəmə gəldiyini, bir daha aktuallaşdığını qeyd edərək bildirdi:**

– Yodun "min bir dərdin dərmanı" olduğunu, həkimlər və əczaçılar yaxşı bilirlər. Hətta hamiləlik zamanı ana sağlamlığı, dölün normal inkişafı, xüsusən ilkin uşaqlıq dövründə zehni və nitq inkişafı ilə bağlı yodun önəmli və zəruri vasitə olduğu məlumdur. Bu qənaətin istinad nöqtələrindən biri Ümumdünya Səhiyyə Təşkilatının "tövsiyə" xarakterli açıqlamasıdır.

ÜST-ün statistikasına görə, dünya əhalisinin 30 faizdən çoxu yod çatışmazlığından əziyyət çəkir. Gündəlik tələbatdan 50 dəfə artıq yod qəbul edən yapon qadınları arasında süd vəzi xərçənginin digər ölkələrə nisbətən 3 dəfə az olduğu, bu ölkədə orta ömür müddətinin isə 82 ilə yüksəldiyi söylənilir.

**– Bu iddiaların elmi əsası varmı?**

– Elmi məntiq bu söylənilənlərin deyildiyi kimi olduğunu təsdiq etmir. Bildirmək istəyirəm ki, yod dəniz yosunları və neft buruğu sularından alınır. Yəni alınması böyük maddiyyat tələb etməyən, satışı isə böyük gəlir gətirən sahədir. Odur ki, yodun təbliği hər şeydən əvvəl bazar maraqlarına xidmət edir. İnsanın yoda tələbatına gəlincə, orta çəki vahidi kimi qəbul olunan 70 kiloqramlıq orqanizmdə 60-dan artıq kimyəvi element var. Bədən kütləsinin 99 faizindən çoxunu oksigen, hidrogen, azot, karbon, kalsium, fosfor kimi 6 element təşkil edir. Yod isə yerdə qalan 54 element yox, mikroelementdən biridir. O həm də orqanizmin mövcudiyyəti üçün zəruri olan 22 mikroelement sırasına daxildir. Miqdar göstəricisinə gəlincə isə, 54-lük sıralanmada 20-ci yerdə durur.



**– İnsanın yoda olan tələbatı necə ödənilir?**

– Hər bir adamın yoda gündəlik ehtiyacı 150 mikroqramdan yüksək deyil. Hormonal disfunksiya isə qəbul edilən yod 50 mikroqramdan az olanda meydana çıxır. Digər tərəfdən, yod qəbuluna mütləq məhdudiyyət qoyulsa belə qalxanabənzər vəzdə ehtiyat halında depolaşan yod 2 ay daxili təminatı ödəmək üçün yetərlidir. Amma bir həqiqət də var ki, qadınlarda hamiləlik zamanı yoda tələbat artır. Bu rəqəm 200 mikroqram və daha çox olur.

Buna səbəb dölün tələbatı ilə yanaşı, mübadilə proseslərinin intensivləşməsi və hormon balansının modulyasiyasının nəticəsi olaraq, xorionik qonadotropin tərəfindən qalxanabənzər vəz follikul hüceyrələrinin stimulyasiyası fonunda, vəzdə baş verən hipertrofiyadır. Bu hal hamiləliyin ilk trimestrində (3 aylıq müddət) baş verir. İkinci və üçüncü trimestrində hormonal aktivlikdə müşahidə olunan disbalans bərpa olunduğuna görə, trioid hormonların plazmadakı miqdarı azalır və yoda tələbat hamiləlikdən əvvəlki səviyyəyə düşür.

Körpələrdə leksik təfəkkür və nitqin inkişafına gəlincə, bu 3-cü xromosomda yerləşən və şərti adı ROBO2 olan genin irsiyyətə bağlı substruktur fəallığından asılıdır. Bu prosesdə yodun birbaşa iştirakını təsdiq edən elmi məlumat yoxdur.

ÜST-ün statistik təhlilinin nəticələrinə gəlincə, bu hal, süni şəkildə yaradılan məhdudiyyətlər hesabına tələbatın tam ödənilə bilməməsindən irəli gəlir. Çünki normal qidalanma və yaşam şərtləri daxilində orqanizmin yoda olan gündəlik tələbatı tam şəkildə ödənilir.

Məsələn, insan orqanizmi yodu su və qida məhsullarından qeyri-üzvü birləşmə – yodidlər halında, dənizə yaxın ərazilərdə isə aeroionlar şəklində dəniz havasından, yəni tənəffüslə alır. Bu baxımdan Allahın bizə nemət kimi verdiyi Xəzər dənizinə çıxış, xalq üçün azad olarsa və ya sahil əraziləri "hasar blokadasından" çıxarılarsa, bizim insanlar arasında yod çatışmazlığı heç bir vaxt müşahidə olunmaz.

**– Professor, yoddan çox istifadə insana necə təsir edir?**

– Hər şeydən aşırı istifadə problem yaradır. Onu da unutmaq olmaz ki, təmiz yod çox toksiki maddədir. Onun miqdarı, orqanizm tərəfindən tənzim olunan tələbatdan artıq olarsa, bu hal kəskin zəhərlənməyə səbəb ola bilər. Odur ki, yodun təbliği ilə məşğul olanlar, az da olsa, yodun əlavə təsirləri haqqında danışıb, insanları maarifləndirsələr daha məqsədəuyğun olar.

Həqiqət budur ki, insan ömrü boyu cəmi 3–5 qram yoddan istifadə edir ki, bu da cəmi 1 çay qaşığının tutumuna bərabərdir. Son olaraq bildirmək istəyirəm ki, yod haqqında deyilənlərə, yazılanlara çox da aludə olmayın. Yaxşı olar ki, gündəlik qayğılarınız və onun həlli yolları ilə məşğul olasınız.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Milli Dram Teatrı yeni mövsümə necə hazırlaşır?

**Yaradıcılıq axtarışları ilə daim yenilənən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında yay tətili davam etsə də, növbəti mövsümə hazırlıq işləri də görülür. Sənət ocağının direktoru, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov XQ-yə bu barədə açıqlamasında bildirdi:**



– Akademik Milli Dram Teatrı qarşıdakı mövsümə repertuarı yeniləşdirməklə hazırlaşır. Bu mövsüm həm bizim, həm də sənət aləmi üçün maraqlı və yaddaqalan olacaq. İndidən bir neçə yeni tamaşanın hazırlıq prosesinə başlamışıq. Bu səhnə əsərləri tərtibat və quruluş baxımından fərqliliklə zəngindir. Ən başlıcası, teatrın səhnəsində tamaşaçı izləyəcəyi hər bir səhnə əsərindən zövq ala biləcək.

**– Yeni tamaşalar barədə indidən nəsə deyə bilərsinizmi?**

– Yeni tamaşalarımız arasında həm dünya, həm də Azərbaycan dramaturgiyasına aid əsərlər var. Nəzərdə tuturuq ki, ilin sonunadək hazırladığımız 4 yeni səhnə əsərini ictimaiyyətə təqdim edək. Birinci tamaşa artıq yaradıcılıq işlərinə başladığımız Uilyam Şekspirin "Maqbet" faciəsinin motivləri əsasında hazırlanan "Ledi Maqbet" tamaşasıdır. Yeni səhnə əsərinin quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov, quruluşçu rəssamı Samirə Həsənova, bəstəkarı Azər Hacıəsgərli, rəqslərin quruluşçusu Lalə Hacıyeva, rejissor assistenti Ceyran Başarandır. Bundan başqa, yeni tamaşalardan biri "Müharibə" olacaq ki, bu tamaşa Mehriban Ələkbərzadə və Nihad Qulamzadənin eyniadlı əsəri əsasında hazırlanacaq. Tamaşanın quruluşçu rejissoru Nihad Qulamzadə, quruluşçu rəssamı Eldar Nağıyev, bəstəkarı Nigar Süleymanova, rejissor assistenti Könül Kərimovadır.

Teatr uzun illərdən sonra yenidən Cəfər Cabbarlının "Aydın" əsərinə müraciət edib. Ərşad Ələkbərovun quruluşunda göstəriləcək tamaşanın rəssamı Şəki Dövlət Dram Teatrının baş rəssamı Sahib Əhmədov, musiqi tərtibatçısı Azər Hacıəsgərli, rejissor assistenti Vüqar Məmmədovdur. Ən nəhayət, Milli Teatrın növbəti yaradıcılıq işi məşhur fransız yazıçı-dramaturqu Rober Tomanın "Səkkiz qadın" pyesi əsasında hazırlanacaq eyniadlı tamaşadır. Tamaşanın quruluşçu rejissoru Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, bəstəkarı Əməkdar incəsənət xadimi Vaqif Gərayzadə, rəqslərin quruluşçusu Ceyhun Dadaşov, rejissor assistenti Nərmin Həsənovadır. Bundan başqa bir yeni mövsümdə Şekspirin "Kral Lir", Xalq yazıçıları Elçin Əfəndiyevin "Baş" və Kamal Abdullanın "Sehrbazlar dərsi" romanları əsasında eyniadlı yeni tamaşaları da tamaşaçılarımıza təqdim edəcəyik.




**– Teatrlararası beynəlxalq əlaqələrin qurulması və qlobal əməkdaşlığın inkişafı üçün perespektiv planlarınız varmı?**

– Akademik Milli Dram Teatrı beynəlxalq teatrlararası əlaqələrin yaradılması və qlobal əməkdaşlığın inkişafı istiqamətində bir sıra addımlar atıb. Bizim üçün ən başlıca işlərdən biri də qeyd etdiyiniz məsələdir. Teatrımız bu yöndə atılan addımları özü üçün vacib şərt kimi diqqətdə saxlayır. Bu günədək bir çox ölkənin aparıcı teatrları ilə memorandum imzalanıb, sazişlər bağlanılıb. Həmçinin qarşılıqlı qastrollar haqqında danışıqlar aparılıb. Biz beynəlxalq festivallarda iştirak etmişik, məruzələrlə çıxışlar olub.

Ötən mövsümdə Rusiya, Gürcüstan, Qazaxıstana səfərlərimiz oldu. Bir sözlə, beynəlxalq əlaqələrin qurulması və dünyanın böyük teatrları ilə təcrübə mübadilələrinin aparılmasına üstünlük veririk. Gələcəkdə bu işimizi daha da təkmilləşdirmək istəyindəyik.

Bildiyimiz kimi bu günlərdə Akademik Milli Dram Teatrında "İblis və..." tamaşasının daxili baxışı keçirilib. Səhnə əsəri Bədii Şura tərəfindən müzakirə olunaraq qəbul olunub. Tamaşanın premyerası sentyabr ayında Sankt-Peterburqda - Aleksandrinski Teatrında keçiriləcək. Oktyabrın 4-dən 6-dək isə Milli Dram Teatrında tamaşaçılara təqdim olunacaq.

Hüseyn Cavidin "İblis" faciəsinin motivləri əsasında hazırlanan tamaşanın janrı fəlsəfi dekonstruktiv-metadramdır. Yeni səhnə əsərinin quruluşçu rejissoru Mehriban Ələkbərzadə, geyim üzrə rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rafael Həsənov, bəstəkarı Azər Hacıəsgərli, məsləhətçisi Əməkdar mədəniyyət işçisi Azər Turan, rejissor assistentləri Nərmin Həsənova və Ceyran Başarandır. İnanırıq ki, tamaşa həm Sank-Peterburqda, həm də ölkəmizdə tamaşaçılar tərəfindən böyük maraqla qarşılanacaq.

Aleksandrinski Teatrı Rusiyanın böyük tarixi və ənənəsi olan teatrıdır. Yaranan əlaqələrin uğurlu nəticəsi olaraq, Aleksandrinski Teatrının Bakıya böyük qastrolu olacaq. Layihə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin və Rusiya Federasiyasının Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşır. Qoqolun məşhur "Evlənmə" əsəri Rusiyanın böyük rejissoru, Xalq artisti Valeri Fokinin quruluşunda təqdim olunacaq.

Belarusiya və Serbiya teatrları ilə də yaradıcı əlaqələrimiz yaralanıb, təşkilati işlərlə bağlı danışıqlar aparılır. Hər iki ölkənin milli teatrları ilə memorandum imzalanacaq, müxtəlif layihələr həyata keçiriləcək.

**– Maraqlı müsahibə üçün çox sağ olun.**

***Ceyhun ALIŞLI***
***XQ***

# Tanınmış qələm sahibi əbədiyyətə qovuşdu

**Amansız ölüm tanınmış dilçi-ədəbiyyatşünas və publisist İlham Əli oğlu Abbasovu sıralarımızdan qoparıb əbədiyyətə qovuşdurdu. Ziyalı ailəsində doğulmuş, milli-mənəvi dəyərlərimizə dərin sevgi ruhunda böyüyüb tərbiyələnmiş soydaşımız 67 illik ömründə ana dilimizin tədqiqi və tədrisi, milli ədəbiyyatımızın təbliği, publisistikamızın yeni mövzularla zənginləşdirilməsi ilə bağlı zəngin və mənalı bir yaradıcılıq yolu keçdi.**



İlham Abbasov 1957-ci ildə Goranboy şəhərində anadan olmuş, 1964–1974-cü illərdə 2 nömrəli orta məktəbdə oxumuşdu. Əmək fəaliyyətindən və orduda xidmətdən sonra 1979–1984-cü illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almışdı. 1985-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində baş laborant kimi elmi-pedaqoji fəaliyyətə başlayan istedadlı filoloq 1989–1999-cu illərdə bu ali məktəbdə laboratoriya müdiri işləmiş, 2002-ci ildən Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasında müəllim və baş müəllim kimi fəaliyyət göstərmişdi.

Gənclik illərindən ölkənin müxtəlif qəzet-jurnalları ilə fəal əməkdaşlıq edən İlham Abbasov 1995-ci ildən pedaqoji fəaliyyəti ilə yanaşı, "Xalq qəzeti"ndə də işə qəbul edilmiş, humanitar şöbənin müdiri vəzifəsində çalışmışdı. Ötən illərdə qəzetin elm, təhsil, mədəniyyət, səhiyyə mövzusunda yazılarının yüksək peşəkarlıqla hazırlanmasına rəhbərlik etmiş təcrübəli qələm sahibi özü də silsilə publisistik yazılarla çıxış etmişdi.

Azərbaycan Mətbuat Şurasının dil üzrə eksperti olan İlham Abbasov ölkə mediasında ana dili normalarına əməl edilməsi ilə bağlı davamlı monitorinqlər aparılmasına rəhbərlik etmiş, dil qanunvericiliyi və ədəbi redaktə sahəsində metodik-tövsiyyə vasitələri hazırlayıb nəşr etdirmişdi. Tələbəlik illərindən ölkənin ədəbi mühiti ilə sıx əlaqədə olan İlham Abbasov Azərbaycan Yazıçılar Birliyinin ədəbi tənqid bölməsinin fəaliyyətində də yaxından iştirak etmiş, yetkin ədəbiyyatşünas, nadir söz xiridarı olaraq tanınmışdı. Onun ədəbi-bədii nəşrlərdəki çıxışları daim böyük maraqla qarşılanardı.

Tanınmış dilçi-ədəbiyyatşünas və yurdsevər publisist İlham Abbasovun çoxsaylı elmi və populyar məqaləsi, "Əbədi vətən", "Sənət duyğuları", "Himnimizin müəllifi", "Nobel mükafatçıları" kimi kitabları ona layiqli nüfuz qazandırmışdı. Ömrünün yetkin, yaradıcılığının məhsuldar, pedaqoji fəaliyyətinin gərəkli bir dövründə İlham Abbasovun qəfil ölümü elm, təhsil və jurnalistikamız üçün ağır itkidir. Dəyərli soydaşımızın, peşəkar həmkarımızın və istəkli dostumuzun işıqlı xatirəsi daim qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Mətbuat Şurasının İdarə Heyəti**
**"Xalq qəzeti"nin kollektivi**

# "Şərqin nəğməkar qızı" Şəkidə

**Görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti Şəfiqə Axundovanın 100 illiyi münasibətilə Xatirə Əkbərovanın çəkdiyi "Şərqin nəğməkar qızı" adlı sənədli-bədii filmin premyerası olub.**



Ekran əsəri Şəkidəki Çingiz Mustafayev adına klubda göstərilib. Təqdimatda Xalq artistləri Gülyaz və Gülyanaq Məmmədovalar, filologiya üzrə fəlsəfə doktoru, AMEA Folklor İnstitutunun Güney Azərbaycan folkloru şöbəsinin aparıcı elmi işçisi, şair-publisist Qiymət Məhərrəmli, televiziya jurnalisti və kinorejissor Vahid Mustafayev, M.F.Axundzadə adına Şəki Mədəniyyət Mərkəzinin direktoru Ağaəli Cəlilov, digər mədəniyyət, elm və təhsil xadimləri, media təmsilçiləri iştirak ediblər.

***XQ***

## Türk şəhərləri




**Mən bu şəhərə ilk dəfə 1984-cü ildə, həmkarlar fəalı, rəhmətlik Allahverdi Əliyevlə köhnə dostlarımızdan birinin toy məclisində iştirak etmək üçün getmişdim. Allahverdi orada əvvəllər dəfələrlə olduğuna görə toydakı adət-ənənələr də onu maraqlandırmırdı, şəhərdəki küçə və meydanların adları da. Valideynləri Dağıstandan olan Allahverdi az qala hər küçədə bir tanışla görüşür, görüş vaxtı təyin edir, çay süfrəsi sifariş verirdi. Mən isə Dəmir qapı Dərbənddə ilk dəfə olduğuma görə dərsliklərdən öyrəndiyim tarixi abidələrlə "görüşmək" istəyirdim. İnsafən, o da, dost-qohumları da mənim "görüşümə" kifayət qədər şərait yaratmışdılar.**

Dərbənddə, təxminən, 40 il əvvəl ağsaqqal bir soydaşımızdan eşitdiyim ifadələr, sanki, ötən həftə olubmuş kimi yadımdadır:

– Adı dillər əzbəri olan nakam bəstəkar Asəf Zeynallını tanıyırsanmı?

– Bəli.

– O, bizim Dərbənddəndir.

– SSRİ Dövlət mükafatı laueratı, Azərbaycanın Xalq rəssamı Ömər Eldarovu tanıyırsanmı?

– Bəli.

– O, bizim Dərbənddəndir.

– Azərbaycanın Xalq artisti, "Ad günü"filmindəki Fəridəni, "Bizim Cəbiş müəllim" filmində Cəbiş müəllimin xanımını, "Dədə Qorqud" filmindəki Burla xatını oynayan Şəfiqə Məmmədovanı tanıyırsanmı?

– Bəli.



– O da bizim Dərbənddəndir...

... O vaxt məni Dərbənddəki Bayat qapı, Qırxlar, Xanküçə, Peyinlikbaşı məhəllələri və digər yer adları maraqlandırmışdı. Xeyli müddət sonra – Dövlət radiosunda çalışdığım illərdə yenidən bu qədim Azərbaycan şəhərində olanda isə məlumatlarım bir az da genişlənmişdi. Öyrənmişdim ki, şəhərdə Bayat ucarı, Carçı, Cartəpə (yəqin ki, Cahartəpə), Genkücə, Mikri, Ortatəpə, Yəhudi və Şəhər qapıları adlı məhəllələr (diqqət yetirin, küçələr yox, məhəllələr) də var. İkinci səfər zamanı öyrəndiyim ən maraqlı məlumatlardan biri isə qədim mayak idi.

Hələ Dərbənddə olarkən öyrənmişdim ki, Qafqaz canişini, general-feldmarşal knyaz Mixail Vorontsov Xəzər dənizində gəmilərin təhlükəsizliyini təmin etmək və Dərbənddə mayakın inşasını gerçəkləşdirmək məqsədilə qərar qəbul etmiş, obyektin inşasına 1851-ci ildə başlanılmış və 16 yanvar 1853-cü ildə mayak karantin və gömrük postunun gözətçilərinə təhvil verilmişdi.

Doxsanıncı illərdə onu da öyrəndim ki, Xəzər dənizi ilə Qafqaz sıra dağları arasında yerləşən Dərbənd Rusiyanın şəhər statusunu daşıyan ən cənub yaşayış məntəqəsidir. Sovet dönəmində belə fikirlər səsləndirilmirdi.

... Hələ çox şeydən başım çıxmadığı illərdə bir neçə ağsaqqaldan, sonra isə atamdan soruşmuşdum ki, Rübabə Muradovanın oxuduğu "Qaragilə" mahnısında nə üçün bizim iki qədim şəhərimizin – Təbriz və Dərbəndin adı çəkilir? Sovet ab-havası gözünün odunu almış ağsaqqallarımız kimi atam da cavab verə bilməmişdi. Nəinki atam, heç orta məktəb müəllimlərimiz də o sualın cavabını "bilmirdilər". Getsin o günlər... Xalqın həsrətini ifadə edən o tipli mahnıların müəlliflərinə isə Allah rəhmət eləsin.

... 2014-cü ildə – Abbasqulu ağa Bakıxanovun anadan olmasının 220 illiyi münasibətilə "Qüdsi əbədiyyət" adlı kitab tərtib edirdim. O zaman oxumuşdum ki, Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində Dərbənd haqqında bu fikirləri yazmışdır: "VIII əsrdən etibarən Dərbəndə xeyli ərəb köçürülmüş, şəhər 7 məhəlləyə bölünmüşdür. Hər məhəllə tayfası üçün bir məscid tikdirib, onun adı ilə adlandırdı. Xəzər məscidi, Fələstin məscidi, Dəməşq məscidi, Həmməs məscidi, Qeysəriyyə məscidi, Əlcəzair məscidi, Mosul məscidi. Bunlardan əlavə, cümə naması üçün hazırkı Dərbənd Cümə məscidi tikilmişdir". Bütün bunlara baxmayaraq, XIX əsrin sonlarında Dərbənd şəhərində olan 11 məhəllədən 9-u azərbaycanlı məhəlləsi idi.

Yəqin ki, diqqətli oxucu məscidlərin adındakı ərəb sözlərini oxuyanda Qafqaz dağlarının Şərq qurtaracağında, Xəzər dənizinin sahilində yerləşən bu gözəl məkanın hamı tərəfindən sevildiyinin fərqinə vardı. Məhz həmin "sevginin" nəticəsidir ki, ərəblərdən çox sonra Çar Rusiyası, ondan da xeyli sonra Sovet rəhbərliyi əlini bu bu şəhərin üzərindən götürmək istəməyib.

Xatırladaq ki, Dərbənd 1796-cı ildə Rusiya imperiyası tərəfindən işğal olunmuşdur. Rusiyada tətbiq edilən yeni inzibati-ərazi bölgüsünə əsasən, Dərbənd ərazisi 1829-cu ildən əyalətə çevrilmiş, 1840-cı ildə Dərbənd qəzası yaradılmış və Dərbənd şəhəri qəza mərkəzi olmuşdu. 1846-cı ildə isə Dərbənd quberniyası yaradılmışdı.

Elektron materiallarda qeyd edilir ki, qədim türklərin istifadə etdiyi Temir Kapuq (yəni "dəmir qapı") ifadəsi müasir azərbaycancada çox işlədilən Dəmirqapı və Dəmirqapı Dərbənd adlarında, həmçinin şəhərin qumuqca (Темир-къапу) eləcə də, kabardincə və çərkəzcə olan (Темыркъапэ, yəni "dəmir qala") adlarında da yaşayır. Maraqlıdır ki, şuşalılar öz şəhərlərinə Şuşa yox, sadəcə Qala dedikləri kimi Dərbəndin yerli azərbaycanlı əhalisi də öz qədim yaşayış məskənlərinə sadəcə Şəhər deyirlər.

Bu qədim yaşayış məskənimizin Azərbaycan mədəniyyətinə və ictimai –siyasi fikir tariximizə bəxş etdiyi şəxsiyyətlərə gəlincə isə həmin siyahı yerli ağsaqqaldan eşidib yuxarıda xatırlatdığımız dördbeş nəfərlə yekunlaşmır. Həmin siyahıda görün, kimlər var ? Şirvanşah I İbrahim – Şirvanşahların Dərbənd sülaləsinin banisi, Tuti Bikə – Quba xanı Fətəli xanın xanımı, Mirzə Kazım bəy – şərqşünas (Rəştdə doğulsa da, ömrünün ilk çağlarından Dərbənddə yaşamışdır), Sona xanım Tağıyeva – Hacı Zeynalabdin Tağıyevin həyat yoldaşı, mesenat, Hacı Xanməmmədov – bəstəkar, Asəf Zeynallı – bəstəkar, Mustafa Nəsirov – general-mayor, Hüseyn Rəsulbəyov – general-leytenant, Tofiq Seyidov – general-mayor, Yusif Vəliyev – aktyor, Şəfiqə Məmmədova – aktrisa, Ömər Eldarov – heykəltaraş, Məmmədkazım Ələkbərli – ədəbi tənqidçi və s...

Yeri gəlmişkən, bu gün Dərbənddə 3 dövlət və bir bələdiyyə teatrı fəaliyyət göstərir. Dövlət Azərbaycan Dram Teatrı, Dövlət Ləzgi Musiqili Dram Teatrı, Dövlət Tabasaran Dram Teatrı və Tat Xalq Teatrı bu qədim şəhərimizin eynilə paytaxtımız kimi multikulturallığından və tolerantlığından xəbər verir.

Yeri gəlmişkən, Dərbənddəki Dövlət Azərbaycan Dram Teatrının binasının tamamilə köhnəldiyini və müasir tələblərə cavab vermədiyini nəzərə alan Azərbaycan Prezidenti İlham Əliyev 2015-ci il avqustun 3-də bu mədəniyyət ocağımız üçün yeni bina tikilməsi barədə sərəncam imzalamış və müvafiq vəsait ayrılmışdır. Həmin teatr artıq yeni binada fəaliyyət göstərir və bu barədə ayrıca qəzet materialı hazırlayacağıq. Teatrın baş rejissoru Sərvər Əliyevin fikrincə, bu gün onların əsas problemi azərbaycandilli gənc aktyor nəslinin formalaşdırılması məsələsidir. İnanırıq ki, bu məsələ də öz həllini tapacaq.

Bu sətirləri baş rejissorun mətbuata verdiyi müsahibədə səsləndirdiyi bir fikirlə tamamlamaq istəyirik: "Tikinti ilə əlaqədar olaraq tamaşalarımızı ayda iki dəfə Dərbənddəki Ləzgi Dövlət Dram Teatrının səhnəsində nümayiş etdiririk". Yəni, qardaş öz məclisini qardaşının evində də qura bilirsə, bu, xoşbəxtlikdir. Həmişə xoşbəxtlikdə olasınız!

***İ.QAÇAYEV***

# Kipr yenidən yada düşüb

## 50 il əvvəl baş verənləri unutmaq olarmı?

**Şimali Kipr məsələsi uzun illərdir Qərb siyasi dairələrinin riyakarlıqla yanaşdığı mövzulardandır. Bu günlərdə BMT-nin türklərin yaşadığı Şimali Kipri və yunan Kiprini danışıqlar masasına dəvət etməsi də bu baxımdan xeyli müəmmalı suallar yaratdı. Bəzi təhlilçilər bunu, hətta adanın türk icmasının varlığına son qoymaq istəyənlərin növbəti məkrli addımı kimi dəyərləndirdilər. Şimali Kipr Türk Respublikasının prezidenti Ersin Tatar isə Kipr probleminin həlli üçün BMT baş katibinin vasitəçiliyi ilə görüşün keçirilməsinə əsas olmadığını bildirdi.**



Digər tərəfdənsə bu yanaşma "Kuzey Kıprıs"ın Azərbaycanın təşkilatçılığı ilə Türk dünyasına yaxınlaşmasına, Türk Dövlətləri Təşkilatında (TDT) müşahidəçi qismində təmsilçiliyinə cavab kimi də dəyərləndirilə bilər. Bu, həm də problemin həllinə sözdə çalışanların, Şimali Kipr Türk Respublikasının dövlət kimi fəaliyyət göstərməsini qəbul etməyənlərin yeni mövqe qazanması yolunda atılan addımdır. Kiprin şimal hissəsində türk dövlətinin mövcudluğunu bu gün də tanımaq istəməyənlərin yadına 50 il bundan əvvəl baş verənləri yada salmaq yerinə düşər.

Türkiyənin Kiprdə həyata keçirdiyi Sülh Hərəkatı əməliyyatı indi bütün Türk dünyasının qürurla andığı hadisələrdəndir.1974-cü ildə Türkiyənin ovaxtkı baş naziri Bülənd Ecevitin göstərişi ilə Kiprdə keçirilən hərbi əməliyyat yunanların adada yaşayan türklərə qarşı hələ 1920-ci illərdən başlayan soyqırımı siyasətinə son qoydu və tarixə Kipr Sülh Hərəkatı kimi düşdü.

Birinci Dünya müharibəsindən sonra adada yaşayan yunanlar Aralıq dənizindəki bir çox, hətta bu günümüzdə də iddialı olduqları adalarla yanaşı, Kiprin də Yunanıstana birləşdirilməsi üçün bütün vasitələrlərə əl atdılar. Beynəlxalq anlaşmaları, qanunları belə saymır, uzun illərdən bəri burada məşkunlaşan və adanın aborigen xalqlarından olan türklərlə ortaq dövlətin qurulmasına belə təpki göstərirdilər. 1950-ci illərdə isə bu "mübarizə" türklərə qarşı soyqırımı həddinə çatmışdı. 1959-cu ildə London Müqaviləsi ilə müstəqil Kipr Cümhuriyyəti qurulsa da, yunanlar türklərin adadan çıxarılması üçün ağır zorakılıqlardan yararlanmaqda idilər.

1960-cı illərdə isə türklərə qarşı açıq şəkildə qətliamlar davam etməkdə idi. Türk kəndlərinə silahlı basqınların ardı-arası kəsilmir, günahsız insanlar mütəmadi hücumlara məruz qalır, əksəriyyəti mülki şəxslər, qadın və uşaqlar olan türklər öldürülür, evləri yandırılırdı. Demokratiya "carçısı" olan dövlətlər isə tərəfləri sülhə çağırmaqla işlərini bitmiş hesab edirdi. Nə yazıqlar ki, Qarabağda 30 ilə yaxın bir dövrdə xalqımız eynilə bu müsibətləri yaşadı…

Nəhayət ki, 20 iyul 1974-cü ildə Türkiyə Cümhuriyyəti Kipr türk xalqının xilası üçün "Kipr Sülh Hərəkatı" adı ilə zəruri addım atmağa vadar olur. Hətta bəzi hökumət üzvlərindən belə tamamilə məxfi saxlanılan əməliyyat Baş nazir Bülənd Ecevit və xarici işlər naziri Turan Günəşin "Ayşə tətilə çıxsın" parolu ilə başlayır.

Yeri gəlmişkən, bu parolun özünün də maraqlı tarixçəsi var. Əməliyyata başlamaq barədə söhbətləşən nazirlər digər ölkələrin onların bu xüsusdakı müzakirələrini dinləsələr belə, başa düşməmələri üçün bir parol təyin etməyi qərara alırlar. Bu məqamda xarici işlər naziri Turan Günəş qızı Ayşə Günəşin adı ilə bağlı həmin kəlməni pıçıldayır. Hərəkatın başlayıb-başlamamasını müəyyən edəcək o sözlər belə olur: "Ayşə tətilə çıxsın".

Şifrədə adı çəkilən Ayşə o vaxt Orta Şərq Türkiyə Universitetinin Sosial elmlər fakültəsinin 19 yaşlı tələbəsi idi. Həmin gənc qız 50 ildən sonra o parolun hekayəsi və detallarını "Anadolu" agentliyinə müsahibəsində belə anladıb: "Ayşə tətilə çıxsın" məxfi əməliyyatın başlanmasının mesajı idi. Mənim adım əslində bir simvoldur, amma bu hadisənin qəhrəmanı mən deyiləm".

Baş nazir Bülənt Ecevit, baş nazirin müavini Nəcməddin Ərbəkan mətbuat konfransı keçirərək, Türkiyə Silahlı Qüvvələrnin Kiprdə əməliyyata başladığını bildirirlər. Türkiyə və dünya mətbuatı hərəkat haqqında xəbərləri yayır. Uzun illər hadisələri sükutla izləyən bir çox dövlətlər hadisələrə dərhal müdaxilə edərək, əməliyyatın dayandırılmasına çalışırlar. Türkiyə hökuməti bu əməliyyatın Sürix və London müqaviləsinin 4-cü maddəsinə istinadən yerinə yetirildiyini bildirsə də, BMT və Avropa Şurası bunu işğal olaraq qiymətləndirmişdir.

14 avqust 1974-cü il tarixində türk silahlı birləşmələrinin paytaxt Nikosiyaya daxil olması ilə nəticələnən əməliyyatı Türkiyə uğurla başa çatdırır, adada türklərin qətliamının qarşısı alınır. Bir il sonra - 1975-ci ildə Kipr Türk Federativ Dövləti və ya Kıbrıs Türk Federasiyası, 1983-cü ildə isə Şimali Kipr Türk Cümhuriyyəti (KKTC) qurulmuşdur. Böyük təzyiqlərlə üzləşən KKTC-nin qurucuları Rauf Denktaş, Fazıl Küçük və silahdaşları mübarizələrini sonadək davam etdirmişlər.

Avropa Şurası Parlament Assambleyasının 29 iyul 1974-cü il tarixli 573 saylı qərarlarda Türkiyənin müdaxiləsinin qanuni olduğu vurğulanmışdır. Ancaq beynəlxalq qərarların çoxunda bu əməliyyat təəssüf ki, "işğal" adlandırılmışdır. İstinye Universiteti Təhlükəsizlik və Müdafiə Strategiyaları Araşdırma Mərkəzinin direktoru, təqaüddə olan general Fəhri Erenel "Habar Türk" kanalına müsahibəsində yunan tərəfdən 54 min əsgərin 35 tankla, türklərin isə 40 min əsgərin 180 tankla əməliyyatda iştirak etdiklərini bildirir. Əməliyyat zamanı yunanlar 4 min, türklər isə 5 yüzə yaxın itki vermişlər. General sonra fəxrlə bu sözləri vurğulayıb: "Biz türkün Çanaqqala döyüşlərindəki qəhrəmanlığını dünyaya tanıtdıq. Kipr əməliyyatı da şanlı bir tarixdir, onun tanıdılması üçün də çalışmalıyıq.

Türk Dövlətləri Təşkilatının müşahidəçi üzvü olan Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Ersin Tatar və digər rəsmi şəxslər dəfələrlə Azərbaycana səfər edərək rəsmi tədbirlərdə iştirak etmiş, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edilmişlər. Bu gün KKTC dünya birliyi tərəfindən dövlət kimi tanınmasa da, onun bir dövlət kimi tanınacağı günün də çox uzaqda olmadığına inanırıq.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Rusiya–Ukrayna savaşı: Kurskda nə baş verir?

**Son günlər Rusiya–Ukrayna müharibəsində sensasiyalı hadisələr baş verir. Ukraynalı hərbçilərin Kurska qəfil hücumu çoxlarını heyrətə salıb. Qlobal media indi bu barədə çox yazır, amma dəqiq məlumatlar, təəssüf ki, azdır.**

Məlumdur ki, Rusiya Silahlı Qüvvələri son həftələr ərzində cəbhənin bir çox istiqamətlərində aramsız hücum əməliyyatları həyata keçirir və bir çox hallarda rəqibi müəyyən qədər geri çəkilməyə məcbur edir. Belə bir məqamda, Ukrayna hərbçilərinin Rusiyanın ərazisinə daxil olması, təbii ki, kifayət qədər cəsarətli plan hesab oluna bilər.

Hadisə belə başlanıb. Bu il avqustun 6-da səhər saatlarında Ukrayna Silahlı Qüvvələrinin təxminən 1000 nəfərdən ibarət bölmələri Kursk vilayətinə hücum ediblər. Mediada və sosial şəbəkələrdə yayılan ilkin məlumatlara görə, ukraynalılar sərhəddən vilayətin mərkəzinə doğru 12 kilometrə qədər irəliləyərək, 10 yaşayış məntəqəsini ələ keçiriblər. Maraqlıdır ki. Ukrayna tərəfi əməliyyatın təfərrüatlarını açıqlamır, faktları isə nə təsdiq, nə də təkzib edir.

Avqustun 7-də Rusiya Prezidenti Vladimir Putin Kurskdakı vəziyyət ilə bağlı fövqəladə müşavirə keçirib. Dövlət başçısı rəsmi Kiyevi Kursk vilayətində mülki və yaşayış məntəqələrini raket atəşinə tutmaqda günahlandırıb.



Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov müşavirədə məlumat verib ki, Kurska hücum zamanı Ukrayna 315 nəfər itki verib (azı 100 nəfər ölüb, 215-i yaralanıb). Onun sözlərinə görə, rəqibin 54 zirehli texnikası, o cümlədən 7 tankı məhv edilib. Qeyd olunur ki, atışma və PUA hücumları nəticəsində Kursk vilayətinin 5 dinc sakini həlak olub. Rusiya Səhiyyə Nazirliyinin məlumatına görə, 6-sı uşaq olmaqla, 31 nəfər xəsarət alıb.

Dünən Rusiyanın Müdafiə Nazirliyi Kurskda yaranmış son vəziyyətlə bağlı məlumat yayıb. Nazirlik sutka ərzində Kursk vilayətinin Ukrayna ilə sərhəddəki Sudja və Korenevsk rayonları ərazisində döyüşlərin getdiyini açıqlayıb. Bildirilib ki, görülən adekvat tədbirlər nəticəsində Ukrayna tərəfinin irəliləməsinin qarşısı alınıb. Ümumilikdə, Kurskda döyüşlər başladıqdan bu yana Ukrayna ordusu 660-dan çox şəxsi heyət üzvünü itirib.

Ən son məlumatlara görə, Rusiyanın Kursk vilayətindəki Sudja şəhərinin bir hissəsi Ukrayna ordusunun nəzarətindədir. Ərazidə olan bir sıra hərbi jurnalistlər bildiriblər ki, şəhərdə şiddətli döyüşlər davam edir. Onların ötürdüyü informasiyaya görə, artıq Ukrayna ordusu şəhərin yarıdan çox hissəsinə nəzarət edir: "Şəhərin bu hissəsinin müdafiəsinə rusiyalı hərbçilərlə yanaşı, yerli özünümüdafiə dəstələri cəlb olunub. Rusiya ordusu demək olar ki, Ukrayna hərbçilərinin Korenevo qəsəbəsi istiqamətində irəliləməsinin qarşısını alıb. Hazırda intensiv döyüşlər Loknya, Nikolski, Viktorovka, eləcə də Kruqlenskoye qəsəbələri uğrunda gedir".

Bununla yanaşı, bölgədən ziddiyyətli xəbərlər gəlməkdə davam edir. Belə ki, vilayət administrasiyasından Ukrayna ordusunun geri çəkildiyi ilə bağlı açıqlama verilib.

Gələn məlumatlar arasında gecə saatlarında Rusiya hava hücumundan müdafiə vasitələrinin Kursk səması üzərində 6 ədəd pilotsuz uçuş aparatı və 5 ədəd raketi zərərsizləşdirdiyi açıqlanıb.

Qeyd edək ki, avqustun 7-dən Kursk ərazisində fövqəladə vəziyyət rejimi tətbiq olunub. Bu arada Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev özünün "Telegram" səhifəsində bildirib ki, "Ukrayna Silahlı Qüvvələrinin Kursk vilayətinin sərhədindəki hərəkətlərindən dərs çıxarmaq və düşməni amansızcasına məğlub etmək lazımdır".

D.Medvedev vurğulayıb ki, rəqibin məqsədi Kursk vilayətində terror əməliyyatı keçirərək, Rusiya qüvvələrinin bir hissəsini Kursk və Belqoroda çəkmək, bununla da əsas qarşıdurma xəttində rus döyüş birləşmələrini seyrəltmək idi.

Rusiya mediası xəbər verir ki, hazırda Donbasda Pokrovsk istiqamətində rusların hücumu nəticəsində Ukrayna üçün mürəkkəb vəziyyət yaranıb. Rusiya komandanlığı əsas hərbi ehtiyat qüvvələrini məhz buraya yönəldir və Ukrayna müdafiəçiləri üzərində təzyiqi hər gün artıraraq irəliləyir.

Ukrayna Prezidenti Ofisi rəhbərinin müşaviri Mixail Podolyak "X" hesabında bildirib ki, Kurskda baş verənlərin əsas səbəbi Rusiyanın təcavüzkar siyasəti ilə bağlıdır. "Hər hansı eskalasiya, atəş, hərbi əməliyyatlar, məcburi evakuasiya və normal həyatın məhv edilməsi, həmçinin bunun Rusiya Federasiyasının öz ərazilərində - Kursk və Belqorod bölgələrində baş verməsi yalnız Rusiyanın birmənalı təcavüzündən qaynaqlanır.

Onun fikrincə, bu, həmçinin xarici əraziləri ələ keçirmək cəhdlərini, suverenliyi və ərazi bütövlüyünü açıq şəkildə müdafiə edən beynəlxalq hüquq normalarına məhəl qoymamağı ehtiva edir.

Ukrayna Silahlı Qüvvələrinin (AFU) Kursk vilayətinə hücumundan sonra Rusiya ilə Ukraynanın Sumı vilayəti arasında sərhəddə yerləşən humanitar dəhliz bağlanıb.

Ukraynanın reinteqrasiya naziri İrina Vereşçuk bildirib ki, humanitar dəhliz ən azı on gün bağlı qalacaq. Yeri gəlmişkən, Belarusla sərhəddə yerləşən Mokranı-Domanovo keçid məntəqəsi isə fəaliyyətini davam etdirir.

***Məsaim ABDULLAYEV***
***XQ***

**Maraq dünyamız**

# "Milyonçu" adalar

## Onların arasında "qızıl"ı da var, "ana" sayılanı da

**Ada sözünü eşidən sadə azərbaycanlının yadına düşən ilk ünvan ötən əsrin əvvəllərində bolşeviklər və ingilislər tərəfindən çoxsaylı türk əsgərinin qətlə yetirildiyi, həmin əsrin otuzuncu illərində isə repressiyaya məruz qalmış günahsız Azərbaycan ziyalılarının son məskəninə çevrilmiş Nargin adası olur. Bir az oxumuş adamlar son iki əsrdə macəra ədəbiyyatının dəyərli nümunələrini yaratmış Avropa yazıçılarının əsərlərindəki adaları xatırlayırlar. Hətta italiyalı rejissor Sercio Korbuççinin 1976-cı ildə çəkdiyi "Sinyor Robinzon" filmini xatırlayanlar da olur.**

Amma ada mövzusu o qədər də sadə məsələ deyil. Uzun illər dünya iqtisadiyyatına və siyasətinə hökmdarlıq iddiasında olan "ada" da var, 10-15 ölkədən çox əhaliyə malik olan adalar da. Bu qısa yazıda həmin adalardan beşinin adını çəkmək istəyirik.

Birinci, dünyada əhalisi ən çox olan ada İndoneziyadadır. Yava adlı bu adanın əhalisi 153 milyon nəfərdir (Bəzi materiallarda 149 milyon göstərilir. Elə olsa da, yenə birinciliyi əldən verməz).

Malayya arxipelaqında, Böyük Zond adaları qrupunda olan Yava İndoneziyanın əsas iqtisadi rayonudur. Cənubdan Hind okeanı, şimaldan Yava dənizi ilə əhatələnir. Bu adada İndoneziya əhalisinin 57 faizdən çoxu yaşayır. Bildirilir ki, Yava İndoneziyanın əsas təsərrüfat rayonlarındandır. Burada əkinçilik inkişaf etmişdir. Kauçuk, kinə ağacı qabığı, ədviyyat ixrac edilir. Əsas şəhərləri Cakarta, Bandunq, Surabayadır.

İkinci, Yaponiya əhalisinin 75 faizinin yaşadığı Xonsyu adasının 103 milyon əhalisi var. Xonsyu dünyanın ən böyük 7-ci, Yaponiyanın isə ən böyük adasıdır. Yaponlar Xonsyuya "ana ada" da deyirlər. Xatırladaq ki, bu ölkədə üç mindən çox ada var. Bu ada, hətta Yavadan sonra dünyanın ən sıx məskunlaşmış adasıdır. Üstəlik, Xonsyu Yaponiya xəritəsinin 60 faizini təşkil edir. Böyük Britaniyadan daha böyük əraziyə sahibdir.

Alimlər yazırlar ki, dağlıq ərazi olan Xonşyuda tez-tez vulkan püskürmələri və zəlzələlər qeydə alınır. Bu səbəbdən də digər adalara nisbətdə Xonşyu adası turist qəbulu məsələsində xeyli geridə qalır.



Üçüncü, yuxarıda qeyd etdik ki, vaxtilə bir neçə cəhətdən dünyaya hökmranlıq etmək iddiasında olan "ada" da var. Bu, Britaniya adasıdır. İngiltərə, Şotlandiya, Uels və Şimali İrlandiyanı əhatə edən Böyük Britaniya və Şimali İrlandiya Krallığı adlı dövlət məhz 67 milyon əhalisi olan Briyaniya adasında yerləşir.

Avropada ərazisinə görə ən böyük, dünyada doqquzuncu olan Britaniya adası eyni adlı adalar silsiləsinin (mindən çox ada nəzərdə tutulur) də ən böyüyüdür. Burada mövsümlər arasında kiçik temperatur fərqləri olan dəniz iqlimi üstünlük təşkil edir. Ehtimallara görə bu ada təxminən 9 min il əvvələ qədər Avropa materiki ilə bitişik olub. İndi isə ada Doggerland kimi tanınan quru körpüsü ilə materikə birləşdirilib.

Dördüncü, 64 miyon əhalinin yaşadığı Luzon adası Filippin adaları arasında ərazisinə görə ən böyüyüdür. Adanın cənubunda Filippinin ən böyük iki şəhəri – Manila və Keson yerləşir. Manila ölkənin paytaxtıdır. Keson isə ölkədə ən çox əhalisi olan şəhərdir.

Mənbələrdə göstərilir ki, qədim xəritələrdə bu adanın adı Lusoniya və ya Yeni Kastilya olmuşdur. Adada yaşayanlara isə lusonlular deyilirmiş.

İkinci Dünya müharibəsi dövründə (8 dekabr 1941-ci ildə) yapon aviasiyası Lusonda olan Amerika bazasına hücuma keçərək adanı işğal etmiş, Tokio Linqaen körfəzində öz bazalarını yaratmışdı. Uzun sürən müharibədən sonra Filippin və Amerika qüvvələri 1945-ci il iyulun 5-də yaponlara qalib gəlir və bununla da Luson adası yenidən Filippinin bir parçası olur.

Nəhayət, "əlli minlik" adaların beşincisi. 60 miyona yaxın əhalinin yaşadığı Sumatra adasını bəzən İndoneziyanın qızıl adası da adlandırırlar. Oxuduğumuz materiallarda qeyd ediliur ki, Sumatra qədim çağlarda zəngin qızıl mədənlərinə görə Swarnadwīpa (Qızıl adası) və ya Swarnabhūmi (Qızıl torpaq) adlarıyla tanınırmış. Sumatra adını isə ilk dəfə 1017-ci ildə Çinə elçi göndərən Sumatra torpaqlarının kralı işlətmişdir. XIV yüzilin sonlarında isə Samudra krallığının yüksəlişiylə adanın da adı Sumatra kimi işlədilməyə başlanmışdır.

***İttifaq MİRZƏBƏYLİ***


## Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

### "Maliyyə-İqtisad" fakültəsində dekan vəzifəsini tutmaq üçün

### MÜSABİQƏ ELAN EDİR

Dekan vəzifəsi üçün müsabiqədə iştirak etmək istəyənlərin fakültənin profilinə uyğun ən azı 5 il elmi-pedaqoji təcrübəsi və peşə-ixtisas hazırlığı, elmi ad və elmi dərəcəsi olmalıdır. Sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi kollegiyasının 15 noyabr 2017-ci il tarixli, 5/5 saylı qərarı ilə təsdiqlənmiş qaydalara əsasən elan dərc olunandan bir ay müddətinədək akademiyaya təqdim edilməlidir.

Telefonlar– 563-13-07, 563-15-40.

Ünvan– AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181.

***Rektorluq***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 168 (30572) 9 avqust 2024-cü il, cümə

# Bu dəfə bürünc qazandıq

**Dördilliyin ən möhtəşəm idman hadisəsi – Paris Olimpiadasında həyəcan dolu yarış günləri bir-birini əvəz etdikcə Oyunlarda rəqabət daha da artır. Dünyanın qabaqcıl idman ölkələri, şübhəsiz, qızıl medal qazanmaq üçün yarışın son günlərində potensiallarından maksimum istifadə etmək üçün gərgin səy göstərirlər. Düzdür, Oyunların istənilən medalı dəyərli və əzizdir, amma Paris Olimpiadasının nəticələri, əsasən baş mükafatın sayına görə müəyyən edildiyindən Olimpiya çempionluğu xüsusilə qiymətlidir.**



Cüdoçularımız Hidayət Heydərov (73 kq) və Zelim Kotsoyevin (100 kq) Olimpiadanın ilk həftəsində parlaq qələbələrə imza ataraq 2 qızıl medal qazanmaları, Azərbaycanın Dövlət Himninin səslərdirilməsi, bayrağımızın ən yüksəklərə qaldırılması bizə qürurlu anlar yaşatdı. Ardınca boksçumuz Alfonso Dominqesin (92 kq) bir-birinin ardınca bütün rəqiblərini məğlub edərək finala yüksəlməsi yeni "qızıl" ümidi yaratdı. Boksçumuz avqustun 9-dan 10-na keçən gecə, Bakı vaxtı ilə saat 00:34-də başlayacaq qarşılaşmaya baş mükafat üçün çıxacaq.

Komandamızın daha bir "qızıl" ümidi Qaşım Maqomedov idi. İlk qarşılaşmalarında başgicəlləndirən qələbələrə imza atmaqla, finala doğru sürətlə irəliləyən dayanq ustamız, təəssüf ki, həlledici mərhələdə zədələndi. Həkimin ciddi ısrarına baxmayaraq, döyüşün sona qədər davam etdirmək üçün nümayiş etdirdiyi böyük qələbə əzmi qəlbləri riqqətə gətirdi, hər kəsi heyran etdi. İdmançımız məhz qızıla bərabər gümüş medal qazandı. 2 qızıl, 1 gümüş medal sayəsində Azərbaycan ölkələrin siyahısında 21-ci sırada qərarlaşdı.

Dünən 2-si sərbəst güləşçi, 1-i isə gimnast olmaqla komandamızın daha 3 idmançısı Parisdə öz gücünü nümayiş etdirdi. Sərbəst güləşçilər Əliabbas Rzazadə (57 kq) və Osman Nurmaqomedov (86 kq) mübarizəyə 1/8 finaldan qoşulublar. Əliabbas Rzazadə ilk görüşdə uduzub. Onun komanda yoldaşı Monqolustan güləşçisinə qalib gələrək 1/4 finala çıxsa da, növbəti mərhələdə Maylz Aminə (San Marino) məğlub oldu.



Bədii gimnast Zöhrə Ağamirova təsnifat mərhələsində top, halqa, lent və gürzlərlə hərəkətlərdə məharətini nümayiş etdirib. Ümumilikdə 117.850 xal toplayan gimnastımız yekun sıralamada 18-ci yeri tutaraq, ilk "onluq"dan kənarda qalıb və finala yüksələ bilməyib.

Dünən, yunan-Roma güləşçimiz Həsrət Cəfərov (67 kq) Amantur İsmayılovla (Qırğızıstan) mübarizədə qələbə qazanaraq bürünc medala sahib olub. Bununla da komandamızın qazandığı medalların sayı 5-ə çatıb.

Bu gün sərbəst güləşçilərimizdən 74 kiloqram çəkidə çıxış edən Turan Bayramov albaniyalı Çermen Valiyevlə görüşəcək. 125 kq çəkidə mübarizə aparan Giorgi Meşvildişvili isə Diaeldin Abdelmottaleblə (Misir) qarşılaşacaq. Hər iki güləşçimiz yarışa 1/8 finaldan başlayacaq.

# Azərbaycan Olimpiya Evində görüş



**Paris Oyunları çərçivəsində Azərbaycan Olimpiya Evində bir sıra ölkələrin olimpiya nümayəndə heyətləri və beynəlxalq idman təşkilatlarının nümayəndələri ilə görüşlər keçirilib.**

Ənənə halını almış görüşdə Olimpiya Oyunlarında gümüş medal qazanan taekvondoçumuz Qaşım Maqomedovun uğurlu çıxışı tədbir iştirakçıları tərəfindən böyük sevinc və alqışlarla qarşılanıb.

Tədbirdə, həmçinin Olimpiya Oyunlarında idmançılarımızın yarışlarını geniş işıqlandıran 3 nəfər Azərbaycan media nümayəndəsinin – doğum günü qeyd olunub. Tədbir iştirakçıları jurnalistləri təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıblar.

Tədbir bədii hissə ilə davam edib.

# "Paris-2024" Paralimpiadasında bayraqdarlarımız



**Paris Yay Paralimpiya Oyunlarının 28 avqustda keçiriləcək açılış mərasimində bayrağımızı daşıyacaq idmançılarımız müəyyənləşib. Bayraqdarlarımız Dünya və Avropa çempionu parataekvondoçumuz İmaməddin Xəlilov və qaçış üzrə 4 qat Dünya və Paralimpiya çempionumuz Lamiyə Vəliyeva olacaq.**

Bu barədə Milli Paralimpiya Komitəsinin baş katibi Toğrul Rəhimov Milli Paralimpiya Komitəsinin (MPK) "Paris-2024" Paralimpiadası öncəsi keçirilən mətbuat konfransında məlumat verib.

Tədbirdə MPK-nın idman şöbəsinin müdiri Şahvələd Əliyev Azərbaycanın Oyunlarda 19 lisenziya ilə ilk dəfə 7 idman növündə iştirak edəcəyini bildirib.

Milli Paralimpiya Komitəsinin Beynəlxalq əməkdaşlıq və ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Rüfət Hacılı isə Paris Paralimpiadası ərəfəsində MPK-nın yeni saytının istifadəyə veriləcəyini də diqqətə çatdırdı. Qeyd edildi ki, burada Azərbaycan təmsilçilərinin yarışlardakı nəticələri barədə məlumat əldə etmək mümkün olacaq.

Xatırladaq ki, Paris Paralimpiadası avqustun 28-dən sentyabrın 8-dək davam edəcək.

# Taekvondoçumuzun bayraq coşğusu

**"Məni dəstəkləyən hər kəsə təşəkkür edirəm. Azərbaycan bayraqlarını tribunalarda gördükcə çox sevinirdim".**



Bu sözləri mətbuata açıqlamasında Azərbaycan taekvondoçusu, "Paris-2024"ün gümüş medalçısı Qaşım Maqomedov (58 kq) bildirib. O qeyd edib ki, Paris Olimpiadasında da ən yaxşı formada olub:

"Qızıl medalı hədəfləmişdim. Əmin idim ki, rəqiblərimin hər birini məğlub edib qızıl medalla Vətənə qayıdacağam. Təəssüf ki, zədə səbəbindən alınmadı".

İdmançı zədələnməsinə belə münasibət bildirib:

"Rəqibim Olimpiya çempionu olmaq üçün var gücü ilə mübarizə aparırdı. O, məni bilərəkdən zədələmədi. Mən arxamı ona çevirdiyim zaman belimdən vurdu. Bu, normal hadisədir. Görüşdən sonra da o, buna görə məndən üzr istədi".

Qeyd edək ki, Qaşım "Paris-2024"də çempionluq uğrunda cənubi koreyalı Park Tae-Junla qarşılaşıb. Taekvondoçu ilk raundda zədələnərək ikinci hissədə döyüşü davam etdirə bilməyib və Olimpiadanı gümüş medalla başa vurub.

Hava

# Aranda günəşli, dağlarda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 9-da Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-25°, gündüz 31-36° isti olacaq.**



Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 45-55 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın əksər rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 22-27, gündüz 33-38, dağlarda gecə 12-16, gündüz 18-23 dərəcə isti olacaq.

# 14 yaşlı Olimpiya çempionu



**Paris Yay Olimpiya Oyunlarında avstraliyalı 14 yaşlı idmançı Olimpiya çempionu olub.**

14 yaş 86 günlük olan Arisa Tryunun olimpiadada fəxri kürsünün ən yüksək pilləsində yer alması bu ölkənin tarixində ilkdir. Skeydbordinq yarışlarında 15 yaşlı yaponiyalı Kokoni Hiraki və 16 yaşlı britaniyalı Skay Braunu qabaqlayan Arisa Olimpiya Oyunlarının tarixində 9-cu ən gənc qızıl medal qazanan idmançı olub.

Qeyd edək ki, olimpiadalar tarixində ən gənc Olimpiya çempionu adına Mardjori Qestrinq (ABŞ) layiq görülüb. O, 1936-cı ildə Berlində keçirilən Olimpiya Oyunlarında suyatullanma yarışlarında 13 yaş 267 günlük olarkən qalib olub.

*Səhifəni hazırladılar:*
*Səbuhi MƏMMƏDOV,*
*Leyla QURBANOVA,*
*Q.QASIMOV*
*XQ*

# Parisdə saxta Olimpiya medalları satışı

**Fransada saxta Olimpiya medalları satan şəxs həbs edilib.**




"Le Parisien" nəşrinin məlumatına görə, cinayətdə şübhəli bilinən 39 yaşlı braziliyalı 11 saxta medalla yaxalanıb. Polis cinayətkarı Parisin 12-ci rayonunda Bersi küçəsində saxlayıb.

Onun kirayə tutduğu mənzilə baxış zamanı müstəntiqlər 198 ədəd ipli, 666 ədəd ipsiz medal, 655 ədəd qızıl-zinət əşyası və üzərində "Paris 2024" emblemi olan 727 ədəd medal ipi, həmçinin 1 340 avro nağd pul və saxta 500 avroluq əskinas aşkar ediblər.

# ALLAH RƏHMƏT ELƏSİN

TƏBİB rəhbərliyi və kollektivi İmişli Rayon Mərkəzi Xəstəxanasının direktoru

**AZƏR KAZIMOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Elxan Hürriyyət Məmmədov və Yusif Rzayev Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini İldırım Mehdiyevə qardaşı

**RAFİQ MEHDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3550
SİFARİŞ 1765
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00